**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**"Azərbaycanda regionların sosial-iqtisadi inkişafının qiymətləndirilməsi" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Hüseynzadə Əliəkbər Rüfət oğlu**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**"___" ____________ 2019-cu il**

**"Azərbaycanda regionların sosial-iqtisadi inkişafının qiymətləndirilməsi"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060410 Dövlət və bələdiyyə idarəetməsi

**İxtisaslaşma: Dövlət Strukturlarında menecment**

**Qrup: 250**

**Magistrant**
**Hüseynzadə Əliəkbər Rüfət oğlu**

**____________________imza**

**Elmi rəhbər**
**i.ü.f.d., dos. Abutalıbov Rasim Rafiq oğlu**

**______________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., b/m Şamxalova Samirə Oqtay qızı**

**______________________imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________imza**

BAKI – 2019

## Summary

**Actuality of the topic.** Plans and financial resources are needed for the socio-economic development of the regions. An effective action plan should be used to make effective use of financial resources.When we look at the transformation of developed countries, we suggest that regional development doesn’t just develop on the basis of supply and demand.Because of this, states must have regional economic policies.All this confirms the relevance of the dissertation work.

**Purpose and tasks of the research.** The purpose and the task of the dissertation work, is to evaluate the socio-economic development of regions and the current state of the regions and to study the problems of regional development:

- ✓ Analysis and evaluation of the current state of socio-economic development of regions in Azerbaijan;
- ✓ Determination of the main directions of socio-economic development of regions in Azerbaijan.

**Mehtods of research.** Statistical observation and grouping of statistical data, graphs and other methods were used to conduct statistical surveys of socio-economic development of our country.

**Information base of research.** The information base of dissertation is based on statistics from the State Statistical Committee, different literature on the socio-economic development of regions and State Programs previously written on this topic.

**Restrictions of research.** Absence of sufficient information on the websites of district executive authorities creates responsible for obtaining information from different sources about each region while doing research.

**Scientific-practical significance of the results.** The obtained results enrich the theoretical and practical economic development of the regions. It is possible to use this dissertation work in the coming years in the preparation of socio-economic development programs in the regions.


**Keywords:** regional development, regional policy, socio-economic development

## MÜNDƏRİCAT

**GİRİŞ**......................................................................................................................5

**I FƏSİL. REGİONAL İQTİSADİYYATIN MAHİYYƏTİ VƏ NƏZƏRİ METODOLOJİ ƏSASLARI**..........................................................................................................8

1.1. Regional iqtisadiyyat, onun mahiyyəti və vəzifələri..............................................................8

1.2. Dövlətin regional siyasətininmahiyyəti və məqsədləri..........................................................18

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ İNKİŞAF PROQRAMLARININ REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU**...............................................................................................25

2.1. Azərbaycan Respublikasında regional iqtisadiyyatın müasir vəziyyəti................................25

2.2. Dövlət Proqramlarının regionlarda qeyri-neft sektorunun inkişafına təsiri...........................36

**III FƏSİL. REGİONLARIN İNKİŞAFINDA QARŞILAŞILAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI**..............................................................................................43

3.1. Regional inkişafın yeni mərhələsində qarşılaşılan problemlər və onun səbəbləri................43

3.2. 2019-2023-cü illəri əhatə edən regional inkişaf proqramı çərçivəsində görüləcək işlər və problemlərin həlli..........................................................................................................51

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**..........................................................................................62

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**.......................................................................65

Şəkillərin siyahısı.................................................................................................................68

Qrafiklərin siyahısı...............................................................................................................69

# GİRİŞ

**Mövzunun aktuallığı.** Dövlətimizin sabitliyi və davamlı inkişafı regionlarımızın sosial-iqtisadi inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır. Respublikamızda bu inkişaf bölgələr üzrə müxtəlif olduğundan ölkəmizin sosial-iqtisadi inkişafı daima aktual məsələlərdən olmuşdur. Regionların sosial-iqtisadi inkişafı təmin etməklə ümumilikdə ölkə iqtisadiyyatının inkişafını reallaşdırmaq olar. Regionların sosial-iqtisadi inkişafı üçün tədbirlər planı və maliyyə resursları lazımdır. Maliyyə resurslarından səmərəli yararlanmaq üçün tədbirlər planının metodologiyası işlənməlidir. İnkişaf etmiş ölkələrin tərcübəsinə nəzər salsaq fikir verərik ki, regional inkişaf sadəcə tələb-təklif əsasında inkişaf etmir. Bunun üçün mütləq dövlətlərin regional iqtisadi siyasətləri olmalıdır. Bu praktikadan istidafə edərək 2004-cü ildən Azərbaycan hökuməti cənab İlham Əliyevin başçılığı ilə regional iqtisadi inkişaf üçün 3 böyük dövlət proqramı reallaşdırmış, qarşıdakı 2019-2023-cü illər üçün regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrasına başlanılmışdır. Bütün bunlar dissertasiya işinin aktuallığını təsdiqləyir.

Bu proqramların əsas məqsədi regionlarda olan təbii, iqtisadi, əmək potensialından səmərəli istifadə etməklə, iqtisadiyyatın ayrı-ayrı sahələrini və sahibkarlığı inkişaf etdirmək, istehsal müəssisələrinin inkişafını stimullaşdırmaq, əhalinin həyat səviyyəsini yüksəltmək, investorları regionlara cəlb etmək, regionlarda yeni iş yerləri yaratmaq, mövcud infrastrukturanı yenidən qurmaq və Bakı şəhərində istehsalın cəmlənməsinin qarşısını almaq, regionlarda məhsuldar qüvvələrin inkişafını sürətləndirməkdən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsəd və vəzifəsi Azərbaycanda regionların sosial-iqtisadi inkişafının və bölgələrin hal-hazırki vəziyyətinin qiymətləndirilməsi, regionların inkişaf problemlərini araşdırmaqdır.

Tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- ✓ Regional iqtisadiyyatın mahiyyətinin açılması və funksiyalarının müəyyənləşdirilməsi;

- ✓ Azərbaycanda tarixən regional iqtisadiyyatın formalaşması xüsusiyyətlərinin aşkara çıxarılması;
- ✓ Azərbaycanda regionların sosial-iqtisadi inkişafının müasir durumunun təhlil edilməsi və qiymətləndirilməsi;
- ✓ Regionlar arasında kəskin fərqlərin meydana gəlməsinə səbəb olan amillərin öyrənilməsi və müvafiq təkliflərin irəli sürülməsi;
- ✓ Azərbaycanda regionların sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi;
- ✓ Regionların təbii, istehsal və sosial-iqtisadi inkişaf zəmininin yaxşılaşdırılmasına dair təkliflərin işlənilməsi;
- ✓ Regionların tarazlı sosial-iqtisadi inkişafının təmin olunması yollarının göstərilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti ölkəmizin regionlarıdır. Tədqiqatın predmeti isə regionların sosial-iqtisadi inkişafına bağlı olan nəzəri-metodoloji biliklərin cəmidir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Regionların sosial-iqtisadi inkişafı bütün dövlətlər üçün önəmli məsələ olduğundan bu mövzuda çoxlu sayda həm yerli, həm də xarici alimlərin elmi araşdırmaları vardır. Bunlara misal olaraq regional iqtisadiyyat sahəsində rus alimləri V.F. Zaxarovu, N.N. Nekrasovu, Amerika iqtisadçısı Uolter Uizardı, respublikamızın alimləri A.A. Nadirovu, Ə.X. Nuriyevi göstərmək olar.

**Tədqiqat medotları.** Ölkəmizin sosial-iqtisadi inkişafının statistik tədqiqatını aparmaq üçün statistika müşahidəsi və statistik məlumatların qruplaşdırılması, qrafiklərlə göstərilməsi və s. metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin informasıya bazasını Dövlət Statistika Komitəsinə aid statistikalar, regionların sosial-iqtisadi inkişafına dair fərqli ədəbiyyatlar və Dövlət Proqramlarıdır.

**Tədqiqatın məhdudiyyətləri.** Rayon icra hakimiyyətlərinin saytlarında kifayət qədər məlumatların olmaması, tədqiqat işini apararkən hər bir bölgə haqqında müxtəlif mənbələrdən məlumat almaq öhdəliyi yaradır.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti.** Əldə olunmuş nəticələr regionların sosial-iqtisadi inkişafını nəzəri və praktiki olaraq zənginləşdirir. Növbəti illərdə regionların sosial-iqtisadi inkişafı proqramları hazırlanarkən bu dissertasiya işindən də istifadə etmək olar.

**Dissertasiya işinin strukturu və həcmi.** Tədqiqat işi giriş, 3 fəsil, 6 paraqraf, nəticə və təkliflər, ədəbiyyat siyahısı da daxil olmaqla 69 səhifədən ibarətdir.

# I FƏSİL. REGİONAL İQTİSADİYYATIN MAHİYYƏTİ VƏ NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. Regional iqtisadiyyat, onun mahiyyəti və vəzifələri

Müasir regional iqtisadiyyat, iqtisad elminin bir sahədir. Regional iqtisadiyyatın predmeti ölkədəki istehsal gücünün yerləşməsinin öyrənilməsi, regional sosial-iqtisadi inkişafın təmini, iqtisadi sahələrin regionların demoqrafik, ekoloji və təbii-iqtisadi xüsusiyyətlərinə görə inkişafı və həmçinin regionlar arası və region daxili iqtisadi əlaqələrin qurulmasıdır.

Regional iqtisadiyyat həmçinin Azərbaycan Respublikası regionlarında təbii resursların potensialını, dünya təsərrüfat sistemində yerini, əhalini, əmək resurslarını, müasir demoqrafik problemlərini və regionların bazar iqtisadiyyatına uyğun inkişaf etdirilməsini öyrənir. Müasir dövrdə Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafında prioritet sahələrin inkişafı vacib məsələrdən biridir.

Regional bazarın formalaşdırılması və regional maliyyə-kredit münasibətləri regional iqtisadiyyatın formalaşmasında mühüm rol oynayır. Çünki regional bazar əhalinin regionda həyat fəaliyyətini təmin edən münasibətlər sistemidir. Bu münasibətlər sisteminə məntiqi sürətdə bağlı olan istehsal, bölgü, mübadilə, son nəticədə istehlak bazarında formalaşan münasibətlər daxildir. Əhali regionda mövcud resurs imkanlarını və alıcılıq qabiliyyətinə uyğun olaraq istehlak bazarında faktiki reallaşan bazar strukturu yaradır.

Regional bazarın formalaşmasında həmin regionun ərazisindən kənarda formalaşan və ona təsir edən iqtisadi göstəricilər mühüm rol oynayır. Xarici təsirlər regiona qoyulan investisiyalar, onların ümumi həcmi, strukturu və regionlarda ondan istifadə dərəcəsinə təsir edir. Regionun məhsuldar qüvvələrinin yerləşmə xüsusiyyətləri və təbii resurslardan istifadənin prespektivi, onun səmərəlilik göstəricisi həmin regiona kapital axınını artırır. Məhz region bazarının inkişafı və təkmilləşdirilməsi bu axının miqdarını və onun strukturunu müəyyən edir. Təbii resursların regionlarda zəngin olması əsas aparıcı amil olsa da, investisiya və axınına stimul yaradan investisiyanın təşviqi, güzəştli kreditlər, lizinq xidməti, bəzi

məhsulların sifariş yolu ilə alınması və emalı region bazarının qorunmasına və yerli resurslardan istifadə stimul yaradır. Regional bazar yalnız istehsal və xidmət sferasının, əhali istehlakını təmin edən mal və xidmətlər məcmuu deyil, həm də əhalinin regionda həyat fəaliyyətini təmin edən münasibətlər sistemidir. Belə ki, bu münasibətlər sisteminə məntiqi sürətdə bağlı istehsal, bölgü və mübadilə, son nəticədə istehlak bazarında formalaşan münasibətlər daxildir. Əhali regionda mövcud resurs imkanlarını və alıcılıq qabiliyyətinə uyğun olaraq istehlak bazarında faktiki reallaşan bazar strukturu yaradır.

Müasir dövrdə regional fərqlərin meydana gəlməsi, fərqlərin səbəblərinin araşdırılması bu sahəyə olan marağı daha da artırmışdır. Xüsusilə iqtisadçıları regional iqtisadiyyat mövzusunu dərindən araşdırmağa vadar etmişdir. Regionlar arasında təbii resursların müxtəlif cür paylanması və başqa regional faktorlar regional iqtisadiyyatın önəmini daha çox qabardır.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq son zamanlar regional iqtisadiyyatın vacibliyi daha da artmaqdadır. Praktiki olaraq islahatın reallaşdırılması prosesində baş verə biləcək problemlər regional faktorlarla və şərtlərlə birbaşa və ya dolayı yolla əlaqəlidir.

Azərbaycanın regionşünas alimləri də regional iqtisadiyyatın tədqiqi sahəsində geniş iş aparmışlar. Akademik A.A.Nadirov regionların əsas formaları olan iqtisadi-coğrafi rayonların, ərazi-istehsal komplekslərinin tədqiqinin əsasını qoymuş və bu istiqamətdə geniş tədqiqatlar aparmışdır. Prof. S.K.Hüseynov regionların tədqiqi sahəsində üstün xidmət göstərmişdir.

AMEA-nın müxbir üzvü Ə.X.Nuriyev regiona aid apardığı tədqiqatları ümumiləşdirərək belə qənaətə gəlir ki, "Region dünyanın, hər hansı bir ölkənin bir və ya bir neçə əlamətlərinə görə başqalarından fərqlənən və elə bunlara görə vahid, bütöv xarakter daşıyan hər hansı ərazi hissəsidir" (Nuriyev Ə. 2004: s. 59)

Regional iqtisadiyyat sahəsində məşhur rus mütəxəssisi V.A.Dolyatovskiyə görə "region özün məhdud daxili resurslarına, istehsal strukturlarına malik olan müasir mənada ərazi-iqtisadi kompleksidir." (Долятовский В. 1994: c. 29) Regional iqtisadiyyatda region anlayışı təkcə coğrafiya sahəsində deyil, həmçinin

bütün iqtisadiyyat elminin tədqiqinin ərazi aspektləri ilə əlaqəlidir. İlk öncə ərazi anlayışı, sonra rayon və daha sonra region anlayışı gəlir.

Regionun əsas özəllikləri aşağıdakılardır:

**Şəkil 1: Regionun əsas özəllikləri**




**Mənbə:** Abutalıbov R. (2010) s. 14

Bütöv region dedik də, regionun təbii resurslarından potensial istifadə olunması, müxtəlif sahələrin kompleks və proporsional inkişafı, region daxili və regionlar arası istehsal və texnoloji münasibətlərin formalaşması başa düşülür.

İ.V.Arjenovskiyə görə "region termini ölkə ərazisinin hissəsinin ictimai əmək bölgüsünə görə ayrılması prosesidir. Bu ərazi eyni məhsul və xidmətlər istehsalı üzərində ixtisaslaşır; ərazilərdəki istehsalın xarakterinə görə, təsərrüfatın kompleksliliyi və bütünlüyü; region qarşısında qoyulan məsələlərin həlli və idarəolunması ilə xarakterizə olunur" (Арженовский И. 1999: с. 24)

Regional iqtisadiyyatda iqtisadi rayon sadəcə ərazi deyil, o, ilk növbədə

iqtisadi kateqoriyadır, hansı ki, ərazidəki müəssisələrin istehsal gücü və uzunmüddətli ərazi planlaşdırılmasını və proqnozlaşdırılmasını, ölkənin istehsal gücü olan işçilərin yerləşdirilməsinin və inkişafının ümumi sxeminin hazırlanmasıdır. Bu eyni cins təbii resursları olan böyük ərazi, hansı ki, bu istehsal gücünün inkişafına istiqamətlənmiş bütün təbii resursların hesablanmasıdır. Bu da birbaşa təsərrüfatla, istehsal və sosial infrastruktura ilə, region daxili iqtisadi istehsal əlaqələrinin səviyyəsi ilə əlaqəlidir.

Regional iqtisadiyyat ərazinin inkişafı ilə əlaqəlidir və bu əhalinin həyat səviyyəsinin və keyfiyyətinin dinamik inkişafına, potensial ərazinin sosial, iqtisadi, ekoloji və resurslar yöndən balanslı olmasına istiqamətlənib. Regional istehsal potensialının formalaşmasının bir tərəfi əhali, onun alıcılıq qabiliyyəti və istehlakı, digər tərəfi isə həmin istehlakı təmin edən subyekt və obyektlərin təsərrüfatçılıq fəaliyyətinin və regionun müvafiq idarəetmə xüsusiyyətini təmin edən təşkilati-idarəetmə strukturudur.

Tarixən regionlar arasında müxtəlif istiqamətli fərqlər mövcud olmuşdur. Sosial-iqtisadi vəziyyətlə əlaqəli olaraq regional fərqləri yaradan amilləri obyektiv və subyektiv amillərə bölmək olar. Obyektiv amillərə regionun inkişaf səviyyəsi, onun ixtisaslaşması, təsərrüfat strukturu, iqtisadi-coğrafi vəziyyəti və s. daxildir. Subyektiv amillərə isə bütün səviyyələrdə regionla əlaqəli hökümətin siyasəti, regionun formalaşmasında onun rolu və s. daxildir. Subyektiv amillərə istiqamətlənmiş fəaliyyət obyektiv amillərin dəyişmə meyllərini və sürətini əsaslı surətdə təyin edir. Regionların istehsal prosesində iştirak edən regional iqtisadi subyektlərə - hökümət müəssisələri və təşkilatları, səhmdar cəmiyyətləri, kooperativlər, məhdud məsuliyyətli cəmiyyətlər, özəl firmalar, ev təsərrüfatları, beynəlxalq şirkətlər və s. daxildir.

Azərbaycan Respublikası iqtisadiyyatın bazar sisteminə keçməsi ilə əlaqədar olaraq regionlarda iqtisadiyyatın öz daxili imkanları hesabına formalaşmasına şərait yaranır. Ərazinin öyrənilməsi, əsasən də orada olan resursların, istehsal və iqtisadi potensialın, ictimai təsərrüfatçılığın, idarəetmə metodlarının formalarının öyrənilməsi onlardan dinamik və səmərəli istifadə olunmasında amillərdən biridir.

**Şəkil 2: Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq respublikamızda regional iqtisadiyyatında yaranan problemlər**




**Mənbə**: Abutalıbov R. 2010: s. 15

Bu problemlərin həlli üçün müəyyən vaxt və resurslar tələb olunur. Regional iqtisadiyyatın əsas inkişaf istiqaməti elmə əsaslanır və real konsepsiyanın formalaşmasını zəruri edir. Bu konsepsiyanın həyata keçirilməsi üçün ilk öncə istehsal gücünün bütövlükdə ölkə miqyasında və ya ayrı-ayrı regionlar üzrə səmərəli yerləşdirilməsi lazımdır.

Regionun daxili bazar məkanı ilə onun xarici bazar məkanı bir-birindən fərqlənirlər. Regionun daxili bazar məkanı öz ərazisi ilə məhduddur, regionun iqtisadi komponentləri ilə əhatəlidir, hansı ki, bazar münasibətləri subyektlərinin

reallaşdırma maraqları və qarşılıqlı təsiri ilə şərtlənir. Daxili bazar həmçinin məhsul, əmək, investisiya və informasiya resurslarının maneəsiz hərəkətidir. Regionun xarici bazar məkanı milli iqtisadiyyatın sərhədləri ilə göstərilir.

Regional iqtisadiyyatın inkişafının elmi konsepsiyası bir çox vacib kompleks problemlərin həllini tələb edir, buda gələcəkdə istehsalın regionlarda və bütövlükdə ölkə miqyasında istehsalın effektivliyinin qalxmasına səbəb olan iqtisadi təsərrüfatçılığın formalaşmasını nəzərdə tutur.

Regional iqtisadiyyatın elmi konsepsiyası aşağıdakılara əsaslanır:

- ✓ Regionlarda əhalinin yerləşməsi ilə istehsalın yerləşdirilməsi arasındakı əlaqələrin qurulmasında ən optimal variantların seçilməsi;
- ✓ Regionlarda olan təsərrüfatçılığın formalaşmasına təsir edən və təbii resurslar potensialının iqtisadi və texniki qiymətləndirilməsi;
- ✓ Yeni sosial-iqtisadi və elmi-texniki faktorların üzə çıxarılması, hansı ki, bu müasir istehsalın, nəqliyyatın, infrastrukturanın yerləşdirilməsində həll edici rol oynayır;
- ✓ Yerli resurslara arxalanaraq ərazilərdə (regionlarda) böyük həcmli təsərrüfatçılıq komplekslərinin qurulmasının və inkişafının mümkünlüyünün aşkarlanması;
- ✓ İstehsal güclərinin səmərəli yerləşdirilməsi imkanlarının qiymətləndirilməsi, regionların inkişafının iqtisad-riyazi modelinin hazırlanması. (Abutalıbov. R 2010: s. 16)

Qeyd etmək lazımdır ki, regional iqtisad elmi konsepsiyanın bu istiqamətlərinə kompleks baxılır və öyrənilir.

Regional iqtisadiyyatın və idarəetmənin əsas predmeti istehsal gücünün yerləşdirilməsi və regional inkişaf amilləridir. İstehsal gücünün yerləşdirilməsi ərazinin iqtisadi inkişafının vacib resurslarından biridir.

Hər bir ərazi iqtisadi, coğrafi, sosial, milli, demoqrafik və başqa əlamətlərinə görə digər ərazilərdən fərqlənir. Rayon anlayışı daha dərin məzmuna malikdir. Region anlayışı isə regional iqtisadiyyat elminə aiddir. Region dedikdə, ölkənin böyük ərazisi olan az və ya çox miqdarda eyni təbii şərtlərinə və təbii resursların

kompleks hesablanmasına yönəlmiş istehsal gücünün inkişafı xarakterinə uyğun ərazi vahididir.

**Şəkil 3: Regionların təsnifləşdirilməsi**




**Mənbə:** Abutalıbov R. 2010: s. 18

Buradan görünür ki, region anlayışına bir istiqamətli yanaşma düz olmazdı. Azərbaycan Respublikasında region anlayışını – iqtisadi-coğrafi region, ərazi-istehsal kompleksi, milli region və inzibati-ərazi bölgüsü kimi göstərmək olar. Böyük iqtisadi rayonlar vahid mərkəzdən idarə olunmur. Region anlayışı ilk növbədə ərazini bildirir və baza rolunu oynayır. İkincisi region – bütün sosial-administrativ sistemin bir hissəsidir. Nəticədə region onun mövcudluğunu göstərən iqtisadi spesifikasiya və formalara malikdir.

Regional kompleksin formalaşması istehsalın səmərəli inkişafını nəzərdə tutur. İndiki şəraitdə hər bir regionun malik olduğu əmək və təbii potensialı, onun coğrafi vəziyyəti, nəqliyyat imkanları imkan verir ki, o, milli təsərrüfat komleksində daha mühüm yer tutsun və səmərəli inkişaf etsin.

Azərbaycan Respublikasında hər bir regionun özünə məxsus təbii ehtiyatları, onların yerləşmə xüsusiyyətləri, təsərrüfat strukturu, iqtisadi-inkişaf səviyyəsi, ixtisaslaşması vardır. Hər bir region ölkənin təsərrüfat kompleksində özünə məxsus

yer tutur. Ona görə də hər bir regionun sosial-iqtisadi inkişafını sürətləndirmək üçün regionların sosial-iqtisadi inkişafını və onları şərtləndirən amilləri dərindən təhlil etmək və onlara məxsus regional xüsusiyyətləri aşkarlamaq lazımdır.

AMEA-nın müxbir üzvü Ə.X.Nuriyev regionu müəyyən edərkən hansı prinsiplərin ön plana çəkilməsindən asılı olaraq onları dörd qrupa bölür:

**Şəkil 4: Regionların bölündüyü qruplar**




**Mənbə:** Nuriyev Ə. 2004: s. 60

İqtisadi region dedikdə, elə bir region başa düşülür ki, onun ərazisində ictimai istehsalın eyni element və komponentləri yerləşsin və inkişaf etsin. İqtisadi regionların formalaşması və inkişafının obyektiv əsasını ictimai əmək bölgüsü təşkil edir. Böyük və kiçikliyindən asılı olmayaraq respublikanın hər bir iqtisadi regionu ölkənin ictimai əmək bölgüsündə fəal rol oynayır. Müəyyən ərazi sahəsini əhatə edən, hər bir iqtisadi region, özünə məxsus inkişaf istiqaməti və istehsal strukturu olan təsərrüfata malikdir. İqtisadi rayonlarda sənayenin inkişafının əsasını yerli və ya kənardan alınan xammal ehtiyatı təşkil edir. Məsələn bir sıra

iqtisadi regionlarda ağır sənaye başqa bir regionda isə yüngül və ya yeyinti sənaye sahələri üstünlük təşkil edə bilər.

İqtisadi regionun daxili mühit elementlərini təhlil edərkən belə qənaətə gəlmək olar ki, burada əsas, müəyyən edici və regionun resurslarla təmin olunmasını formalaşdıran elementlər: istehsal, xalq təsərrüfatı kompleksi, təbii, əmək, investisiya, eləcə də qurulmuş sosial infrastrukturadır. Bu sosial-iqtisadi inkişaf səviyyəsini əhalinin məşğulluğunu və s. müəyyən edir.

Coğrafi rayonlaşdırma üzrə tanınmış rus alimi T.M. Kalaşnikova belə qeyd etmişdir ki, iqtisadi-coğrafi rayonlaşdırmanın əsasını insanların təsərrüfat fəaliyyəti nəticəsində yaranan sosial-iqtisadi ərazi sistemləri təşkil edir. (Калашникова Т. 1999:с. 58)

Regionlar öz daxili resursları və coğrafi mövqeyinə görə müəyyən qruplara bölünə bilər. Regional xüsusiyyətlər region əhalisinin tələbat sistemi, maddi və mənəvi nemətlərə, təklifin formalaşması, əhalinin alıcılıq qabiliyyətini müəyyən edən gəlirlər və sahibkarlığın hesabına tələbatın ödənilmə dərəcəsi, həmçinin regionda sosial infrastrukturanın inkişaf səviyyəsi, idxal və ixracın mal təklifi və tələbin formalaşmasında rolu daxildir.

Regional iqtisadiyyatın formalaşmasının bir tərəfi əhali, onun alıcılıq qabiliyyəti və istehlakı, digər tərəfi isə həmin istehlakı təmin edən subyekt və obyektlərin təsərrüfatçılıq fəaliyyətini və regionun müvafiq idarəetmə xüsusiyyətlərini təmin edən təşkilati idarəetmə strukturudur. Əhalinin istehlakının formalaşmasında regionun iqtisadi imkanları istehsal sahələrinin daha çox əmək tutumlu olması və uyğun olaraq gəlirlərin maksimum səviyyəsi və regionda olan pul kütləsinin miqdarı əsas yer tutur.

Regionlarda təbiətdən istifadə özünə xas özəlliyə malikdir, birbaşa və dolayı yolla regionun iqtisadi inkişaf səviyyəsi ilə əlaqəlidir. Ayrıca element olaraq regionlarda təbiətdən istifadəni resursların iqtisadi-ekoloji özəlliyi kimi baxmaq olar. Bura əsasən ilk növbədə torpaq, su, meşə, mineral resurslardan optimal istifadə, ikincisi təbiətin ekosistemində texnogen və antropogen yükləmələrin təyini, üçüncüsü ətraf mühit göstəricilərinin keyfiyyətinin yaxşılaşdırılması və

sonuncusu isə təsərrüfatçılığın inkişafının sosial-iqtisadi metod və yollarının səmərələşdirilməsi nəzərdə tutulur. Burada ən vacib məsələ ərazinin sağlam ekoloji tutmuna nail olmaq və ərazinin sosial-iqtisadi və sosial-ekoloji funksiyalarının tarazlığının saxlanmasıdır. Lakin, sənaye sahələrinin ərazi üzrə yerləşdirilməsində bu amillər çox zaman nəzərə alınmır və bu da regionda arzuolunmaz iqtisadi və ekoloji nəticələrin baş verməsinə gətirib çıxarır.

Əmək resurslarının təsiri, iqtisadi rayonlarda istehsalın təmərküzləşməsində, ixtisaslaşmasında və məhsuldar qüvvələrin inkişaf səviyyəsində özün göstərir. Əmək tutumlu istehsal sahəsi olan rayonlarda əməyə tələbat artır. Çünki belə rayonlarda enerji və elektriklə silahlanma digər rayonlara nisbətən aşağıdır. Rayonun əmək resursları ilə az təmin olunması məhsuldar qüvvələrin inkişafına və əmək tutumlu sahələrin inkişafına maneə olur.

Regional iqtisadiyyatın formalaşmasında və inkişaf etməsində təbii resurslar əsas amillərdən biridir. Hər hansı bir ərazidə məhsuldar qüvvələrin yerləşdirilməsində təbii resurslar əsas şərtlərdən biri kimi çıxış edir. Ərazidəki təbii resurslar əhalinin təsərrüfatçılıq fəaliyyətinin yerləşməsinin əsasını təşkil edir. Təbii resursların çox olduğu ərazilərdə sənaye mərkəzlərinin meydana gəlməsinə, ərazi-istehsal komplekslərinin, iqtisadi rayonların formalaşmasına gətirib çıxarır. Rayonun təbii resursları onun ərazi əmək bölgüsünə təsir edir. Təbii resurslardan istifadə regionun inkişaf tempinə təsir edir.

Müasir dövrdə regional iqtisadiyyatda istehsalın inkişaf etdirilməsi və ixtisaslaşması o sahə üzrə aparılmalıdır ki, burada təbii və əmək resursları rayonun coğrafi və nəqliyyat vəziyyəti, əhalinin mədəni səviyyəsi və s. nəzərə alınsın. Rayon əmələ gətirmə amilləri, əməyin ərazi bölgüsü, iqtisadi resurslar, inzibati ərazi bölgüsü, müxtəlif rayonlarda ayrı-ayrı istehsal sahələrinin ixtisaslaşmasıdır. İstehsal amili rayon əmələ gətirmə amili kimi məhsuldar qüvvələrin səviyyəsinə, istehlakın ərazi təmərküzləşməsinə, təsərrüfat ixtisaslaşmasına təsir göstərir. Əməyin ərazi dedikdə istehsalın ərazi təmərküzləşməsi və təmərküzləşən ərazilər arasında iqtisadi əlaqə başa düşülür. İqtisadi rayonların təmərküzləşməsini müəyyən edərkən ilk növbədə təbii ehtiyatlardan istifadə xalq təsərrüfatı

səmərəliliyinə uyğun həll edilir.

## 1.2. Dövlətin regional siyasətinin mahiyyəti və məqsədləri

Ölkə iqtisadiyyatının böyüməsi və inkişafı bütün ölkələrin ən əsas məqsədlərindən biridir. Bu məqsədə çatmaqda əsas prinsiplərdən biri mövcud resurslardan səmərəli şəkildə yararlanmaqdır. Demək olar ki, bütün ölkələrdə əhalinin böyük şəhərlərə köçməsi, iqtisadiyyatın və sosial fəaliyyətlərin bir mərkəz ətrafında sıxlaşması, regionların inkişafı arasında çox böyük fərqlər yaratmışdır. Belə fərqlər regionlar arasında iqtisadi aktivliklərdə, əhalinin sayında, əhalinin alıcılıq qabiliyyətində, bölgələrin infrastrukturlarında özünü daha çox göstərir. Bütün bunlar regional inkişafa mane olan və regional inkişafı həyata keçirmək üçün regional siyasət tətbiq edən ölkənin daha çox resurs və əmək sərf etməsinə gətirib çıxarır.

Regionlar arasında belə fərqliliklər az inkişaf etmiş bölgələrin çox inkişaf etmiş bölgələrə sosial rifat cəhətdən yaxınlaşdırılması üçün bir siyasətin tətbiq olunması məsələsini də özü ilə bərabər gətirmişdir. Məhz belə siyasət regional siyasət adlanır. (Kahraman Arslan, 2005: s. 275)

Regional siyasət aparılarkən həmin regionun təbii şəraiti də mütləq nəzərə alınmalıdır. Təbii şəraitlə regional siyasət bir-biri ilə çox bağlıdır və bu səbəbdən regional siyasət hazırlanarkən regionun təbii şəraitinə diqqət yetirilir. Regional siyasətlə təbii şərait bir-birini tamamlamadıqda regional siyasətin işlənməsinin heç bir əhəmiyyəti olmur.

Regional siyasətin əsas məqsədi əhatə etdiyi regionun və ya regionların əhalisi arasında rifah səviyyəsini bərabərləşdirmək və yüksəltməkdir. Tətbiq olunan regional siyasətlər ölkədən ölkəyə dəyişir. İstər inkişaf etmiş ölkələr, istərsə də inkişaf etməkdə olan ölkələr zəif inkişaf etmiş bölgə problemi ilə üz-üzə qalır. İnkişaf etmiş ölkələrdə regionlar arasında iqtisadi və sosial fərqlərin az olması, inkişaf etməkdə olan ölkələr üçün regional siyasəti inkişaf etmiş ölkələrə nisbətən daha vacib edir. Məsələn Böyük Britaniyanın daha az inkişaf etmiş bölgəsi ilə

Azərbaycanın daha az inkişaf etmiş bölgəsinin infrastrukturu və problemləri fərqli olduğundan tətbiq ediləcək regional siyasət də fərqli olacaqdır.

Keçən əsrin sonlarından başlayaraq artan qloballaşma nəticəsində iqtisadiyyatda dövlətin rolunun azalması, regional siyasətin hazırlanmasına da təsirini göstərmiş və yeni idarəetmə mexanizmləri ortaya çıxmışdır. (Nihal Kargı 2009: s. 19)

Yeni mexanizmlərə əsasən yerli icra strukturları, özəl sektor, vətəndaş cəmiyyətləri regional siyasətdə birlikdə iştirak edərək, bu siyasəti birgə həyata keçirməlidirlər. Burada əsas məqsəd həmin regionu daha yaxından tanıyan qurumların, şirkətlərin və vətəndaşların səyləri nəticəsində daha səmərəli və daha az məsrəflə regional siyasət yürütməkdir.

Ölkələr arasında inkişaf fərqləri olduğu kimi, bir ölkənin regionları arasında da fərqlər olur. Regionlar arasında fərqlər dedikdə, ölkədə bəzi bölgələrin digər bölgələrə nisbətən sosial, iqtisadi və mədəni göstəricilərinin daha çox və ya daha az olması nəzərdə tutulur. İqtisadi inkişaf heç bir zaman bütün ölkələrdə eyni vaxtda başlamayacağı kimi, hər hansı bir ölkənin bütün regionlarında da eyni zamanda və eyni cür başlaya bilməz. İqtisadi inkişafın bir regionda başlaması üçün həmin bölgənin ya zəngin təbii sərvətləri olmalı, ya həmin bölgənin siyasi-iqtisadi mövqeyi yaxşılaşmalı və bunlardan heç olmasa biri ilə regional siyasətin tətbiq olunması lazımdır. Əhali artımının həddən artıq çox olması, infrastrukturun zəif olması, nəqliyyat və rabitə sektorlarının keyfiyyətli fəaliyyət göstərməməsi və s. iqtisadi inkişafa mane olan əsas səbəblərdir.

Qloballaşma prosesində texnologiyanın inkişafı və yeni istehsal mexanizmləri regional siyasət anlayışını da dəyişir. Bu anlayışda artıq regionlar da qlobal iqtisadiyyatda söz sahibi olmağa çalışır və regional siyasətin hədəfi sadəcə regionu inkişaf etdirmək deyil, həm də ölkənin ümumi inkişafında və rəqabət qabiliyyətinin artmasında söz sahibi olmaqdır. Bütün bunların mümkün olması üçün innovativ və elmi əsaslara dayanan regional siyasət tətbiq olunmalıdır. Regional siyasət bölgələrin rəqabət qabiliyyətinin artırılması hədəfi ilə yeni bir baxış qazanmışdır. Regionların rəqabət qabiliyyəti nə qədər yüksək olarsa, bu

ölkənin də rəqabət qabiliyyətini yüksəldər və mövcud hədəflərə nail olunar.

Son 10 il ərzində regional siyasətin mərkəzində sadəcə geridə qalmış regionlar deyil, bütün regionların potensialından maksimum istifadə etmək dayanır. Regionlar arasında inkişaf fərqlərinin ənənəvi yollarla azaldılması əvəzinə, hər bir bölgənin ehtiyaclarını, zəif və güclü tərəflərini nəzərə alan bir regional siyasət anlayışı formalaşmışdır. Bu anlayışda belə qəbul olunur ki, bir regionun inkişafı nəticəsində onun ətrafındakı regionlarda bu inkişafdan bəhrələnir və ümumi inkişafa səbəb olur.

Dövlətin ümumi siyasətinin əsas tərkib hissəsi regional siyasətdir. Regional siyasət dedikdə hakimiyyət orqanları tərəfindən hər hansı bir regionun  və ya regionların sərhədləri daxilində həyata keçirilən siyasət başa düşülür. Bir çox iqtisadçılar regional siyasətlə əlaqədar öz fikir və ideyalarını irəli sürmüş, eksperiment aparmışdır.

Regional siyasətin tərifini həm də regionda olan müəyyən problemlərin həllinə yönələn islahatların cəm halı kimi də vermək olar. Həmçinin regional siyasəti əhalinin məşğulluq səviyyəsinin yaxşılaşdırılması, aşağı həyat tərzinin qarşısının alınması, ölkə iqtisadiyyatının gücləndirilməsi kimi başa düşmək də olar. Bu məsələyə hər bir elm adamının yanaşma şəkli müxtəlifdir və onlar bu yanaşmalarda öz əvvəlki təcrübələrinə, şəxsi metodologiyalarına söykənirlər. Buna görə də regional siyasətə yanaşma şəkillərində nə qədər özünü göstərən müxtəlifliklər olsa da, hamısı üçün kifayət qədər oxşar xüsusiyyətlər də nəzərə çarpmaqdadır.

Dövlətin regional siyasəti yeni müəssisələrin yaradılması və inkişaf etdirilməsinə, istehsalın iqtisadi rayonlar üzrə optimal yerləşdirilməsinə, məhsul ixracının genişləndirilməsinə, yeni ixrac yönümlü məhsulların istehsal edilməsinə, iqtisadiyyatın sahə strukturunun təkmilləşməsinə yönəldilir. (Armstrong N., Taylor J. 1993: p. 46)

Beynəlxalq təcrübəyə əsaslanaraq bazar iqtisadiyyatlı ölkələrdə regional siyasətin ən çox təsadüf olunan obyektləri işsizliyin minumuma endirilməsi, rifah səviyyəsinin yüksəldilməsi, regionlar arasında həyat şəraitində və səviyyəsində

mövcud olan fərqlərin aradan qaldırılmasıdır. (Balchin P., Sykora L. 1999: p. 112)

Regional siyasət regionların təsərrüfat həyatına və onunla əlaqədar sosial proseslərə dövlətin məqsədyönlü təsir prosesidir. Regional siyasət ölkənin dövlət quruluşu formasından asılı olaraq onun regionlara bölgü sisteminin və hər bir qrup regionun idarəetmədə rolunun düzgün müəyyən edilməsi, elmi cəhətdən əsaslandırılmış, düzgün regional siyasətin və müvafiq dövlət tənzimləmə vasitələrinin işlənib hazırlanması regional siyasətin hüquqi əsaslarını quran və tətbiqi formalarını müəyyən edən qanunların, digər normativ aktların və başqa inzibati hüquqi sərəncam və qərarların qəbul edilməsi, həmin qanunların, digər normativ hüquqi aktların, sərəncam və qərarların icrasını təmin edən institutların qurulması, digər təşkilati işlərin, tədbirlərin hazırlanmasıvə yerli şəraitə uyğun istifadə üçün bütün iqtisadi və təşkilati işlərin görülməsini nəzərdə tutur.

Müasir dövrdə Azərbaycanda regionun və regional siyasətin formalaşmasına müxtəlif amillər təsir göstərir. Bu amillərə əsasən tarixi, demoqrafik, siyasi-hüquqi, təşkilati, təbii resurslar, sosial-iqtisadi, ekoloji, texnoloji və s. aiddir. Ölkəmizin ərazisində ayrı-ayrı regionların və inzibati rayonların təbii şəraiti, iqlim xüsusiyyətləri, əmək ehtiyatları, hər hansı bitki növlərinin inkişaf xüsusiyyətləri, xüsusilə iqtisadi inkişaf xüsusiyyətləri nəzərə alınaraq bir-birinə yaxın qonşu inzibati rayonlardan ibarət təbii iqtisadi zonalar üzrə, iqtisadi rayonlar təşkil edilir. Respublikalamız mürəkkəb dağlıq, düzənlik relyefə malik, iqlim və hidroloji şəraitə, torpaq örtüyünün müxtəlif növlərinə, mineral xammal ehtiyatlarına malikdir. Göstərilən mürəkkəb təbii iqlim-torpaq və ekoloji şəraitin təsiri altında istehsalın ixtisaslaşmasının daxili oxşarlığı baş verir. Belə oxşar əlamətlərinə görə digər ərazilərdən fərqlənən müxtəlif iqtisadi rayonlar formalaşır. Bu baxımdan respublikada mövcud iqtisadi rayonların təkmilləşdirilməsində təmərküzləşmiş təsərrüfat tipləri və onların sərhədləri əsas şərtlərdən biri kimi götürülür. Ona görə də təbii şərait, istehsal, əhali və ətraf mühitin vahidliyi, bir-birini qarşılıqlı sürətdə tamamlaması ideyası əldə rəhbər tutulur.

Regional siyasətdə inzibati və fiziki ərazi rayonlardan fərqli olaraq təbii-iqtisadi rayonların sayı, ərazi tərkibi, sərhədləri respublikanın perspektiv quruculuq

proqramları, siyasi-iqtisadi quruculuq məqsədlərindən asılı olaraq vaxtaşırı müasirləşdirilərək dəyişə bilər. Ola bilsin ki, gələcəkdə də bu təbii-iqtisadi rayonların yerləşdikləri ərazinin bütün xüsusiyyətləri və s. səbəblər nəzərə alınaraq, bir sıra dəyişikliklər edilə bilər və bu məqsədə uyğundur. Bütün siyasi-iqtisadi-ictimai dəyişikliklər iqtisadiyyata təsir etdiyi kimi inzibati və iqtisadi rayonların quruluşunda olan dəyişikliklər də iqtisadiyyata təsir edəcək.

Azərbaycanda regional siyasətin əsas vəzifələri işğal olunmuş ərazilərin azad olunması, mövcud inzibati-ərazi bölgüsünün və iqtisadi rayonlaşdırma şəbəkəsinin qarşılıqlı əlaqədə təkmilləşməsini, iqtisadiyyatın inkişafına üstünlük verilən regionlar üçün güzəştlər sisteminin (əmək haqqı, güzəştli kreditin verilməsi, vergi, gömrük güzəştləri və s.) tətbiqi, ölkənin daxili və regional bazarlarının qurulması, xaricdən gətirilən bir çox sənaye və kənd təsərrüfatı məhsullarının yerli istehsalla əvəz olunması siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinin davam etdirilməsidir. Ümumiyyətlə, ərazi inkişafının tənzimləməsinin başlıca məqsədi əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılması, regional sistemlərin dayanıqlı və tarazlı fəaliyyətinin təminidir.

Dövlətin regional siyasətinin mahiyyəti regionların iqtisadi və sosial sahələrdə fəaliyyətinin bərabərləşməsinə, regional ehtiyatlardan optimal istifadə edilməsinə şərait yaradılmasına və regionların iqtisadiyyatının inkişafına yönəldilmiş dövlət fəaliyyətidir.

Dövlətin regional siyəsəti dedikdə, həm dövlətin, həm də regionların özlərinin hazırlayaraq həyata keçirdikləri tədbirlər sistemi başa düşülür. (Folmer H. 1986: p. 26)

Hər bir regionun ayrı-ayrılıqda öz daxili siyasəti isə həm daxili, həm də xarici ehtiyatlardan maksimum və səmərəli istifadə edilməsi, regionun şəraiti nəzərə alınmaqla region əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirlərdir. Həmin tədbirlər həm də ictimai istehsalın strukturunun təkmilləşdirilməsini, sosial və bazar infrastrukturunun inkişafını təmin etməli, sahibkarlığın inkişafına və iqtisadi artıma, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinə, ekoloji tarazlığın təmin edilməsinə təsir

göstərməlidir.

İnkişaf etmiş demokratik ölkələrdə sosial-iqtisadi inkişafı tənzimləmə mexanizmi kimi regional siyasət ölkədə iqtisadiyyatın sabit inkişaf tempini stimullaşdırmağa və müdafiə etməyə, ölkənin dünya bazarında iqtisadi mövqeyini və nüfuzunu qoruyub saxlamağa və artırmağa, dövri olaraq əmələ gələn iqtisadi, sosial sarsıntıların, münaqişələrin, kəskin rəqabətlərin qarşısını almağa və həll etməyə, əhalinin həyat səviyyəsini yüksəltməyə, buna müvafiq olaraq istehlak tələbini ödəməyə və daxili bazarı genişləndirməyə, ölkənin ərzaq və iqtisadi təhlükəsizliyini təmin etməyə yönəlmişdir.

Regional siyasətin tənzimlənməsi, bütövlükdə bu siyasətin həyata keçirilməsində müvafiq inkişaf proqramlarının və layihələrinin kompleks tədqiq edən hər bir regiona ayrı-ayrılıqda ekspert qrupunun yaradılması İqtisadi İnkişaf Nazirliyi tərəfindən yerli hakimiyyət orqanları ilə birgə həll edilməlidir.

Regional siyasətin məqsədlərinə çatmaq üçün dövlət aşağıdakı tədbirləri həyata keçirməlidir:

- ✓ Regionların maddi, əmək və maliyyə ehtiyatlarından xarici ölkələrin müvafiq qurumları ilə qarşılıqlı əlaqədə səmərəli istifadə etməklə onların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi;
- ✓ İstehsal və infrastrukturanın inkişaf səviyyəsində regionlar arasında tarixən yaranmış kəskin fərqlərin aradan qaldırılması;
- ✓ Keyfiyyətli və rəqabət qabiliyyətli yerli məhsullar istehsalının genişləndirilməsi və əhalinin tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi, ölkənin xarici ölkələrdən ərzaq asılılığının minumuma endirilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi;
- ✓ Azad sahibkarlıqdan, rəqabətdən irəli gələn regionlar arası və region daxili ziddiyyətlərin, regionlar daxilində təsərrüfatlar arası fərqlərin aradan götürülməsi;
- ✓ Respublikanın və onun regionlarının iqtisadi təhlükəsizliyinin təmin olunması.

Azərbaycanın bugünki inkişaf mərhələsində regional siyasətin strateji

məqsədləri respublika daxili iqtisadi rayonların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlardan, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan səmərəli şəkildə istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və ölkənin iqtisadi rayonlarında sənayenin daha da səmərəli yerləşməsinə nail olmaqdır.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ İNKİŞAF PROQRAMLARININ REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

## 2.1. Azərbaycan Respublikasında regional iqtisadiyyatın müasir vəziyyəti

Hər bir regionun sosial-iqtisadi inkişafı ilk növbədə orada olan təbii ehtiyatlar, müxtəlif xarakterli iqtisadi şərait və istehsal imkanlarından asılıdır. Ehtiyatların regionlar üzrə qeyri-bərabər yerləşməsi regionlar arasında əlaqələrin qurulmasını şərtləndirən başlıca amillərdən biridir. Bunun üçün sənaye sahələri və məhsuldar qüvvələr regionlar üzrə səmərəli yerləşdirilməli, istehsalın ərazi təmərküzləşməsi və onun ixtisaslaşma səviyyəsi təmin olunmalıdır. Sənayə sahələrinin ərazi üzrə səmərəli təşkilində əmək ehtiyatlarından düzgün istifadənin müstəsna dərəcədə əhəmiyyəti vardır.

Azərbaycanda regionların inkişafı ölkəmizdə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyasının əsasını təşkil edir. Bölgələrin inkişafı üçün atılan addımlar bu illər ərzində öz bəhrəsini artıqlaması ilə vermişdir. Görülən işlər bütün mənfi halların dəfələrlə azalmasına azalmasına, bir çox sahələrdə keyfiyyətin artmasına təkan vermişdir.

Regionların sosial iqtisadi inkişafındakı fərqliliyin aradan qaldırılmasının ən doğru yolu məqsədli dövlət proqramlarının tərtib edilməsidir. (Məmmədov A. 2018: s. 62)

Azərbaycan iqtisadi tarixinin son 20 ilində ilk dəfə olaraq regionlarla bağlı iri miqyasda, milli xarakterli sosial-iqtisadi inkişafa aid Dövlət Proqramları hazırlanmışdır. (Həsənov T. 2012: s. 231)

Bütün görülən işlərdə 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə dövlət proqramlarının çox böyük önəmi olmuşdur. Bu dövlət proqramları aşağıda göstərilən regionları öz əhatəsinə almışdır.

Dövlət Proqramlarının əhatə etdiyi iqtisad rayonlar:

- ✓ Abşeron;
- ✓ Aran;

- ✓ Quba-Xaçmaz;
- ✓ Dağlıq Şirvan;
- ✓ Lənkəran;
- ✓ Yuxarı Qarabağ;
- ✓ Şəki-Zaqatala;
- ✓ Gəncə-Qazax;
- ✓ Kəlbəcər-Laçın;
- ✓ Naxçıvan. (2014-2018-ci illər Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı)

2014-cü il fevralın 27-də dövlət başçısı İlham Əliyevin fərmanı ilə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər) çərçivəsində ölkədə yeni mərhələnin davam etməsinə gətirib çıxardı.

2014-2018-ci illər Dövlət Proqramının Tədbirlər Planında 1127 tədbir nəzərdə tutulmuşdur. Bunun 43-ü ölkə əhəmiyyətli, 1084-ü isə iqtisadi rayonlar üzrə tədbirdir. İqtisadi rayonlar üzrə baxıldıqda isə Aranda 327 tədbir, Dağlıq Şirvanda 79 tədbir, Gəncə-Qazaxda 195 tədbir, Quba-Xaçmazda 94 tədbir, Lənkəranda 115 tədbir, Naxçıvanda 57 tədbir, Şəki-Zaqatalada 106 tədbir, Yuxarı Qarabağda 53 tədbir, Abşeronda 58 tədbir həyata keçirilmişdir. (2014-2018-ci illər Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı)

**Şəkil 5: 2014-2018-ci illər dövlət proqramı ərzində keçirilən tədbirlərin sayı**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

Hal-hazırda işğal altında olan Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarında dövlət proqramlarını reallaşdırmaq mümkün olmamışdır. Bu səbəbdən həmin iqtisadi rayonlarda yalnız işğaldan azad edildikdən sonra dövlət proqramları reallaşdırılacaqdır.

Cənab prezidentin ölkəmizin regionlarına vaxtaşırı həyata keçirdiyi səfərləri regional inkişaf proqramlarının icrasına yerindəcə nəzarət etməklə, regionların yüksək inkişafına nail olunması, regionlarda yaşayan əhalimizin həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində görülən işləri sürətləndirmişdir. Proqramların həyata keçirildiyi 14 il ərzində cənab prezident İlham Əliyev 1820-dən çox obyektin açılış və təməlqoyma prosesində şəxsən iştirak etmişdir. Yeni açılmış müəssisələrin fəaliyyəti ilə maraqlanmış, sahibkarlarla və yerli ictimaiyyətlə görüşmüşdür.

**Qrafik 1: Cənab prezidentin regionlarda açılışında və ya təməl qoyma mərasimində iştirak etdiyi obyektlərin sayı**




**Mənbə:**https://economy.gov.az//uploads/fm/files/DP/Regionların%20iqtisadi%20inkişafı.pdf

Bu illər ərzində əhalinin gəlirlərinin yüksəldilməsi istiqamətində də işlər görülmüşdür. Reallaşdırılan tədbirlər nəticəsində orta aylıq əmək haqqı dəfələrlə

artmış, yoxsulluq kəskin azalmış, əhalinin yaşam səviyyəsinin artması əldə olunmuşdur.

**Qrafik 2: Orta aylıq əmək haqqı**




**Mənbə**: https://www.stat.gov.az/menu/13/

Hökümət tərəfindən sosial-iqtisadi inkişafın təmin olunması, yoxsulluğun azaldılması üçün aşağıdakılar həyata keçirilmişdir və bu istiqamət davam edir:

- ✓ Gəlir əldə etmək imkanlarının artırılması üçün əlverişli mühitin qurulması;
- ✓ Makro-iqtisadi sabitliyin qorunub saxlanılması;
- ✓ İnfrastrukturun yaxşılaşdırılması;
- ✓ Əsas səhiyyə və təhsil xidmətləri üzrə keyfiyyətin və həmin xidmətlərdən istifadə üçün bərabər imkanların yaradılması;
- ✓ Həssas qrupların daha səmərəli müdafiəsi üçün mövcud sosial müdafiə sistemində müvafiq islahatların keçirilməsi.

**Qrafik 3: Yoxsulluq faizi**




**Mənbə**: https://www.stat.gov.az/menu/13/

Ötən 14 il müddətində reallaşdırılan tədbirlər nəaticəsində 2 milyondan çox iş yeri yaradılmışdır. Respublikamızda 100 000-dən çox yeni müəssisə açılmışdır ki, bunun da 40%-ə yaxını regionlarda fəaliyyət göstərir. Həmçinin yeni açılan iş yerlərinin 70%-dən çoxu regionların payına düşür.

**Qrafik 4: Dövlət Proqramlarının reallaşması nəticəsində açılmış müəssisələrin sayı**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/Regionların%20iqtisadi%20inkişafı.pdf

**Qrafik 5: Dövlət Proqramlarının reallaşması nəticəsində açılmış iş yerlərinin sayı**




| | 2004-2008 | 2004-2013 | 2004-2018 (10.01.2018) |
|---|---|---|---|
| Regionlar üzrə | 552821 | 884081 | 1555994 |
| Ölkə üzrə | 766227 | 1237236 | 2150856 |

Regionlar üzrə Ölkə üzrə

**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/Regionların%20iqtisadi%20inkişafı.pdf

Ölkə iqtisadiyyatına investisiya qoyuluşuna dəstək verilməsi cənab prezidentin siyasət strategiyasının əsas xəttinə çevrilmişdir. Region inkişaf proqramlarının həyata keçirildiyi 14 il ərzində Azərbaycan iqtisadiyyatına 240 milyard ABŞ dolları miqdarında sərmaye yatırılmışdır.

**Qrafik 6: İqtisadiyyata qoyulmuş investisiyalar**




**Mənbə**: https://www.stat.gov.az/source/finance/

Dövlət Proqramının reallaşdırıldığı dövrdə sahibkarlığa dövlət investisiyasının vacib istiqamətlərindən biri də müəssisə rəhbərlərinə güzəştli kreditlərin verilməsi mexanizmi olmuşdur. Sahibkarlıq fəaliyyətinə təkan verilməsi və bu sahəyə dövlət qayğısının çoxaldılması məqsədilə 2014-2018-ci illər dövlət hesabına 1039,1 milyon manat, ümumilikdə 2004-2018-ci illər müddətində isə 2238,1 milyon manat kredit ayrılmışdır.

**Qrafik 7: Verilmiş güzəştli kreditlərin həcmi, milyon manatla**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

Sahibkarlıq fəaliyyətinin genişlənməsi və bölgələrin iqtisadi inkişafı, onun sosial təminatı, regionda yoxsulluq problemlərinin həlli, onun dünya inteqrasiya sisteminə daxil olması əlaqələrinin miqyaslı artımı və tarazlı inkişaf dinamikasından asılı olaraq dəyişir və inkişaf edir. Sahibkarlığın inkişafının regional problemləri, ayrı-ayrı ərazilərdə istehsal və xidmətin stimullaşdırılması, həmçinin dövlətin regional siyasətində əhalinin məşğulluğu və yoxsulluğun ləğvi dövlət proqramlarının tətbiqi ilə bağlıdır.

**Qrafik 8: Güzəştli kredit verilmiş sahibkarların sayı**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

**Şəkil6: 2014-2018-ci illər ərzində verilmiş güzəştli kreditlərin respublikanın iqtisadi rayonlar üzrə bölgüsü (faizlə ifadəsi)**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

**Qrafik 9: 2014-2018-ci illər ərzində verilmiş güzəştli kreditlərin respublikanın iqtisadi rayonlar üzrə bölgüsü (min manatla)**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

**Qrafik 10: Güzəştli kreditlər hesabına maliyyələşdirilən investisiya layihələrinin reallaşdırılması nəticəsində yaradılan iş yerləri**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

Dövlət Proqramının əsas prinsipi regionların dinamik inkişafına çatmaq, qeyri-neft sahəsini dirçəltməkdir. Sənaye istehsalının ölkə ərazisi üzrə yerləşdirilməsi prinsiplərinə uyğun olaraq son zamanlar ölkəmizin iqtisadiyyatının prioritet sahələrinə investisiyaların yönəldilməsi, sahibkarlara güzəştli kreditlərin

verilməsi nəticəsində müasir istehsal və emal müəssisələrinin yaradılmasına və mövcud olanların isə fəaliyyətinin bərpa edilməsinə, iqtisadiyyatın balanslaşdırılmış inkişafının sürətləndirilməsinə şərait yaradılmışdır.

**Şəkil 7: 2014-2018-ci illər ərzində dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş investisiya layihələrinin iqtisadiyyatın sahələr üzrə bölgüsü**




**Mənbə:**https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

**Şəkil 8: 2014-2018-ci illər ərzində dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş investisiya layihələrinin iqtisadiyyatın sahələr üzrə bölgüsü (faizlə ifadəsi)**




**Mənbə:**https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

**Qrafik 11: 2014-2018-ci illər ərzində verilmiş güzəştli kreditlərin sahələr üzrə bölgüsü (məbləğ üzrə, milyon manatla)**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

Ölkənin əmək resurslarından istifadə olunması investisiya siyasətinin əsas məqsədlərindən biri olmalıdır. Ölkə iqtisadiyyatının prioritet sahələrinin inkişafına investisiya qoyulmasına dair proqramların icrası və sahibkarlara verilmiş güzəştli kreditlər nəticəsində qeyri-dövlət sektorunun inkişafına güclü təkan verilmiş, regional sahibkarlıq inkişaf etdirilmiş, yeni hüquqi və fiziki şəxslər yaranmışdır.

Dövlət Proqramlarının icra olunduğu bu illər müddətində Azərbaycanda kiçik və orta sahibkarlığa texniki kömək və insan amilinin inkişafı üçün əhalinin sahibkarlıq fəaliyyəti üçün lazımlı biliklərin əldə edilməsinə kömək göstərilmişdir. Kiçik və orta biznes üçün əsas peşələr üzrə kadr hazırlığının yaxşılaşdırılmış, gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasına çalışılmışdır.

Sahibkarlığın inkişafı və regionların iqtisadi inkişafı, onun sosial təminatı, regionda yoxsulluq problemlərinin həlli, onun dünya inteqrasiya sisteminə daxil olması əlaqələrinin miqyaslı artımı və tarazlı inkişaf dinamikasından asılı olaraq dəyişir və inkişaf edir. Sahibkarlığın inkişafının regional problemləri, daxili resursların kompleks iqtisadi dövriyyəyə cəlb edilməsi, ayrı-ayrı ərazilərlə istehsal və xidmətin stimullaşdırılması, həmçinin dövlətin regional siyasətində əhalinin məşğulluğu və yoxsulluğun ləğvi ilə kompleks proqramların tətbiqi ilə bağlıdır.

Bu tədbirləri davam etdirmək üçün regionlarda maarifləndirmə işləri aparılmalı, sahibkarlıq fəaliyyətinə dair konfranslar keçirilməli, məsləhət və informasiya xidmətləri təşkil edilməlidir. Kiçik və orta sahibkarların xarici tərəfdaşlarla işgüzar əlaqələrinin qurulmasına və inkişafına kömək göstərilməsi vacib məsələlərdəndir.

Yeni müəssisələrin, yeni iş yerlərinin yaradılması regionların mövcud potensialından düzgün istifadə edilməsinə, regionların tarazlı inkişafına, əhalinin məşğulluğunun təmin edilməsinə, regionlarda mal və xidmətlər istehsalının artmasına və son nəticədə əhalinin həyat səviyyəsinin getdikcə yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

2014-2018 Dövlət Proqramının tədbirlər planına daxil olan məsələlərdən biri də bölgələrdə meliorasiya və irriqasiya işlərinin aparılması və bir çox sektorun su ilə təmin edilmə problemlərini aradan qaldırmaq idi. Bu tədbirlər planında 2014-2018-ci illər ərzində Tərtər rayonunda 26, Füzuli rayonunda 9, Ağdam rayonunda 19, Zaqatala rayonunda 17, Şəki rayonunda 12, Oğuz rayonunda 5, Qəbələ rayonunda 3, Qax rayonunda 11, Balakən rayonunda 10, Masallı rayonunda 1, Lənkəran rayonunda 1, Cəlilabad rayonunda 5, Astara rayonunda 1, Qusar rayonunda 2, Quba rayonunda 4, Xaçmaz rayonunda 5, Tovuz rayonunda 14, Şəmkir rayonunda 13, Samux rayonunda 13, Qazax rayonunda 16, Göygöl rayonunda 8, Gəncə şəhərində 1, Goranboy rayonunda 13, Ağstafa rayonunda 10, Şamaxı rayonunda 1, İsmayıllı rayonunda 8, Bərdə rayonunda 17, Beyləqan rayonunda 5, Ağdaş rayonunda 1, Ağcabədi rayonunda 13, Yevlax rayonunda 4 subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Ümumilikdə bu illər ərzində Yuxarı Qarabağda 54, Şəki-Zaqatalada 58, Lənkəranda 8, Quba-Xaçmazda 11, Gəncə-Qazaxda 88, Dağlıq Şirvanda 9, Aranda isə 40 subartezian quyusunun qazılması planlanmışdır. Bu illər ərzində rayonların bir çoxunda hətta planlaşdırılandan artıq subartezian quyusu istifadəyə verilmişdir. Bunlardan başqa Neftçala magistral kanalının, Sabirabad və Salyan şəhərlərində qrunt sularının səviyyəsini endirmək üçün drenaj sisteminin qurulması davam etdirilmiş, Tovuzçay su anbarı istifadəyə açılmışdır.

Ümumiyyətlə dövlət proqramlarının icrası ilə əlaqədar regionlarda iqtisadiyyatın müxtəlif sahələri üzrə yeni təmərküzləşmiş müəssisələr yaradılmış, əhalinin məşğulluğunun təmin edilməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Yeni iş yerlərinin daha çox regionlarda açılması ilk növbədə ölkə prezidenti cənab İlham Əliyevin regionların kompleks inkişafına xüsusi diqqət və qayğı göstərilməsi, bu sahədə həyata keçirilən məqsədyönlü siyasət, həmçinin Dövlət Proqramına uyğun olaraq regionların infrastruktur təminatının yaxşılaşdırılması və kommunal xidmətlərə olan tələbatın ödənilməsi sahəsində tədbirlərin ardıcıl olaraq icra edilməsi ilə bağlıdır.

## 2.2. Dövlət proqramlarının regionlarda qeyri-neft sektorunun inkişafına təsiri

Azərbaycan Respublikasının müstəqilliyinin ilk vaxtlarından başlayaraq əsas diqqətin neft sektoruna ayrılması neft sektorunun qeyri-neft sektoruna nisbətən daha sürətlə inkişaf etməsinə səbəb olmuşdur. Beləliklə neft amilinin rolu artmış, qeyri-neft sektoruna qoyulan investisiyalar neft sektoruna qoyulan investisiyalardan dəfələrlə az olmuşdur. Neft sektorunun yüksək sürətlə inkişaf etməsi digər sahələrə də təsir göstərmiş, bununla da qeyri-neft sektoruna təsir etmə imkanları yaratmışdır. Son zamanlarda dünya neft birjasında neftin qiymətinin sabit olmaması qeyri-neft sektorunun inkişaf etdirilməsinin vacibliyini sübut etmişdir.

Son zamanlarda ölkəmizdə iqtisadi sabitliyi saxlamaq üçün neft sektoru ilə qeyri-neft sektoru ilə arasında tarazlıq yaratmaq, bütün resursları səmərəli istifadə etmək ön plandadır. İcra strukturları tərəfindən reallaşdırılan dövlət proqramları öz növbəsində qeyri-neft sektorunun inkişafına təkan vermişdir. Hökümət qeyri-neft sektorunun inkişafına vacib məsələ kimi diqqət yetirmişdir. Hal hazırda ölkədə əsas diqqət əhalinin yaşam səviyyəsinin artırılması və iqtisadi sahələr arasında rəqabət qabiliyyətliliyin yüksəldilməsidir.

Bu sektorun inkişafı iqtisadiyyatın inkişafında şaxələnmə yaradır. Burada dövlətin əsas vəzifəsi şaxələnmə hadisəsini sürətləndirməkdir. Müxtəlif regionların

inkişafına çalışılması da qeyri-neft sektorunun inkişafında əhəmiyyət daşıyır. Ölkəmizdə bu sektorun inkişafı üçün əlverişli şərait təşkil olunması və kiçik, orta sahibkarlığın iqtisadi fəaliyyətinin həvəsləndirilməsi dövlətin başlıca vəzifəsidir. Hər bir ölkənin ümumi iqtisadiyyatının bir hissəsini milli iqtisadiyyat əhatə edir. Milli iqtisadiyyatların strukturu həmin ölkələrin iqtisadiyyatlarının gücünü aydınlaşdırır. Ölkəmizin iqtisadi strukturunu göstərilən kimi ayırmaq olar.

**Şəkil 9: Ölkəmizin iqtisadi strukturu**




**Mənbə:** İsmayılova N. 2017: s. 6

Dövlət Proqramlarının uğurla reallaşdırılması nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində müsbət nəticələr əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində planlaşdırılan tədbirlərin reallaşdırılması əhalinin yaşam səviyyəsinin artırılmasında önəmli faktor olmuşdur. 14 il müddətində ümumi daxili məhsulun real həcmi dəfələrlə artmışdır. Bu tədbirlər qeyri-neft sektoruna da öz təsirini göstərmişdir.

**Qrafik 12: Ümumi Daxili Məhsulda qeyri-neft sektorunun artım dinamikası (milyon manatla)**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/ALL_230119_SMALL_1.pdf

2018-ci ildə qeyri-neft sənayesi 10 milyard manatlıq məhsul istehsal etmiş və keçən il ilə müqayisədə bu sənayenin 9% böyüdüyünü görərik. Qeyri-neft sənayesində qeyri-neft emalı sənayesi 7 milyard 474 milyon manat, mədənçıxarma sənayesi 305 milyon manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesi 313 milyon manat, elektrik enerjisi, qaz istehsalı və s. sənaye sahəsi isə 1 milyard 954 milyon manat pay sahibi olmuşdur. (economy.gov.az)

**Şəkil10: Qeyri-neft sənayesinin ümumi buraxılışının strukturu (2018-ci ildə)**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/diger/2018%20qeyri-neft%20(1).pdf

2018-ci il ərzində iqtisadiyyatda əsas kapitala qoyulmuş cəmi investisiyaların 65.5%-i və ya 11289.3 milyon manatı qeyri-neft sektoruna yönləndirilmişdir. Əsas kapitala qoyulmuş investisiyaların 15.7%-i, qeyri-neft sektoruna yönləndirilən investisiyaların isə 24.0%-i və ya 2704.9 milyon manatı qeyri-neft sənayesi bölməsinin inkişafında istifadə edilmişdir ( economy.gov.az)

**Şəkil 11: Əsas kapitala yönəldilmiş investisiyaların strukturu (2018-ci ildə)**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/diger/2018%20qeyri-neft%20(1).pdf

Dövlətimizin iqtisadi siyasəti ölkə iqtisadiyyatının çoxşaxəli inkişafının təmin edilməsini nəzərdə tutur. Bu siyasətin nəticəsi olaraq son illərdə Azərbaycanda bölgələrin sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır. (senaye.gov.az)

Regionlarda rəqabətqabiliyyətli sənaye məhsulları istehsalını və qeyri-neft sektorunu genişləndirmək məqsədilə sənaye məhəllələri və sənaye parkları açılmışdır. Bu məqsədlə bir çox ölkələrin qabaqcıl təcrübəsi öyrənilmiş və həm qeyri-neft sahəsi, həm də kənd təsərrüfatı sahəsi üzrə ölkəmizdə tətbiqi şəraiti araşdırılmışdır.

Sənayə parkları da ən azı sənaye məhəllələri qədər qeyri-neft sənayesinin şaxələnməsində böyük rol oynayır. Ölkəmizdə yaradılan sənaye parklarında hal-

hazırda 35-dən çox rezident fəaliyyət göstərir.

Sənaye məhəllələrində görülən işlərə misal olaraq Neftçala Sənaye Məhəlləsini nəzərdən keçirsək görərik ki, Neftçala Sənaye Məhəlləsinə müxtəlif avtomobil modelləri istehsal edən Azevrocar MMC də daxil olmaqla 9 müəssisə daxildir. Ümumilikdə Neftçala Sənaye Məhəlləsinə 43 milyon 249 min manat investisiya qoyulub. Masallı, Hacıqabul, Sabirabad rayonlarında yaradılan sənaye məhəllələri də öz növbəsində yeni iş yerlərinin yaranmasında və sənayenin müxtəlif sahələrinin inkişafında böyük rol oynayır.

**Şəkil 12: Sənaye məhəllələri**




**Mənbə:** http://senaye.gov.az/az/senaye_zonalari/mehelleler

**Şəkil 13: Sənaye parkları**




**Mənbə:** http://senaye.gov.az/az/senaye_zonalari/parks

Qeyri-neft sənaye istehsalının ölkə ərazisi üzrə rasional yerləşdirilməsi sahibkar, dövlət və cəmiyyət üçün aşağıdakı üstünlüklərdən istifadəyə şərait yaradır:

- ✓ Xammal bazasına yaxınlıq və təbii sərvətlərdən yararlı istifadə;
- ✓ Ucuz əmək resurslarından istifadə və yerlərdə işsizliyin aradan götürülməsi;
- ✓ Ölkə əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması;
- ✓ paytaxt və mərkəz şəhərlərdən əhalinin rayonlara, regionlara cəlb edilməsi;
- ✓ yerli sənaye məhsulları ilə daxili bazarın təhciz olunması və xarici bazarlara çıxış.

Regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafında həlledici rol oynayır. Dövlət Proqramlarının reallaşdığı 14 il müddətində kənd təsərrüfatına da xüsusi diqqət ayrılmışdır.

**Qrafik 13: Kənd təsərrüfatında əkin sahələri (min hektar)**




**Mənbə:** https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do#

Bütün bunlardan əlavə ölkə ərazisində ən əsas məsələlərdən biri də ekoloji təhlükəsizliyin qorunub saxlanmasıdır. Ətraf mühitdən səmərəli istifadə, təbiətin mühafizə problemləri, ərazinin təbii tutumu ilə hesablaşmasını tələb edir.

Regionlarda kanalizasiya sistemlərinin mükəmməl olmaması və mövcud sistemlərin tələbatı ödəməməsi, çirkab suların ətraf ərazilərə təmizlənmədən axıdılması ekoloji problem olaraq qalır. Bundan əlavə ekoloji problemlərdən biri

də ölkəmizin meşə ehtiyatının azalmasıdır. Müəyyən dövr ərzində, xüsusən müstəqilliyin ilk illərində yanacaq çatışmamazlığı, soyuq qış aylarında meşələrə təsir artmış, şəhərlərdə, kəndlərdə, park və yol kənarlarında ağacların kütləvi qırılması baş vermişdir. Beləliklə, respublikaya və onun ekoloji vəziyyətinə ciddi ziyan dəymişdir. 2019-2023-cü illər Dövlət Proqramına bu məsələlər də daxil edilmişdir və həll olunması üçün bu illər ərzində müəyyən işlər aparılacaqdır.

İqtisadi regionlarda qeyri-neft sənayesinin inkişafı səviyyələrinə görə fərqlərin başlıca səbəbi bütövlükdə respublika sənayesinin inkişafında mövcud olan müəyyən nöqsanlardan irəli gəlir. İstifadə edilən bir çox xammal növlərinin kompleks emal olunmaması, xüsusən bir sıra xammal və yarımfabrikatların hazır məhsul istehsalı səviyyəsinə çatdırılmaması, respublikanın bəzi aparıcı təsərrüfat sahələri ilə əlaqədar istehsal sahələrinin zəif inkişafı və ya onların tamam olmaması, əhalinin tələbatının yerli istehsal hesabına ödəyəcək sənaye sahələrinin lazımi səviyyədə qurulmaması və s. müasir dövrdə respublika sənayesinin kompleks inkişafını müəyyən dərəcədə məhdudlaşdırır.

# III FƏSİL. REGİONLARIN İNKİŞAFINDA QARŞILAŞILAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

## 3.1. Regional inkişafın yeni mərhələsində qarşılaşılan problemlər və onun səbəbləri

Azərbaycan Respublikasında regionların inkişafı dedikdə, regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sosial və iqtisadi infrastrukturun daha da inkişaf etdirilməsi, işsizlərin sayının azalması və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, regionlarda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, mülkiyyətin bütün formalarının geniş şəkildə inkişaf etdirilməsi, istehsala yeni texnika və texnologiyaların tətbiqi, kiçik və orta sahibkarlığın inkişafı, xalq təsərrüfatının ilk növbədə isə sənaye və kənd təsərrüfatı sahələrinin dinamik inkişafının təmin edilməsi və onların strukturunun təkmilləşdirilməsi, digər regionlarla iqtisadi əlaqələrini, həmçinin respublika ilə vəhdətdə inkişaf meyllərini təmin etmək nəzərdə tutulur. Bundan başqa respublikada kompleks inkişaf tədbirləri, ölkənin maliyyə resurslarının səmərəli iqtisadi dövriyyəyə cəlb edilməsi, xarici və daxili investorların sahibkarlıq fəaliyyətində rolunun güclənməsi, idarəetmə və tənzimləmə tədbirlərinin təkmilləşdirilməsi, bazar iqtisadiyyatına uyğun regionların ümumi iqtisadi inkişaf dinamikası ilə tarazlığın təminatı nəzərdə tutulur. Regionların inkişafında mühüm məsələlərdən biri kənd təsərrüfatı məhsullarının, ilk növbədə pambığın, üzümün və tütünün ölkədə emal edilib son məhsula çatdırılmasına nail olmaqdan ibarətdir.

Azərbaycan Respublikası regionlarının əksər hissəsi kənd təsərrüfatı sahələrinə yararlı olduğundan bu sahənin hərtərəfli inkişaf etdirilməsi vacib məsələlərdən biridir. Kənd təsərrüfatının gələcək davamlı inkişafını təmin etmək üçün, bu sahədə çalışan mütəxəsislərin potensialının inkişaf etdirilməsinə yönəlmiş praktik tədqiqatların aparılmasına, aqrar tədqiqat institutlarının maddi-texniki bazasının yaxşılaşdırılmasına, orada tədris olunan təlimin keyfiyyətinin yüksəldilməsinə və modernləşdirilməsinə, həmçinin, kənd təsərrüfatı sahəsində tədqiqat aparmaq üçün tələbə mübadiləsi proqramları üzrə xarici universitetlərdə

əməkdaşlığın inkişaf etdirilməsinə diqqət yetiriləcəkdir.İlk öncə torpaq bazasının inkişaf etdirilməsi, fermerlərin otlaq torpaqlardan istifadə etmək imkanlarının yaxşılaşdırılması və milli baytarlıq və bitki mühafizəsi xidmətlərinin gücləndirilməsi lazımdır. Bunları həyata keçirmək üçün fermerlərin idaəetmə və texniki bilikləri artırılmalı, aqrar sahədə çalışan mütəxəsislərin potensialı reallaşmalıdır.

Regionların aqrar sahədə əlverişli olduğu üçün aqrar bazarda əmtəə və xidmətlərin mübadiləsi və satışına əlverişli iqtisadi şərait yaradılması, aqrar bazarı təşkil edən bütün subyektlərin, o cümlədən kənd təsərrüfatı əmtəə istehsalçılarının stimullaşdırılması, daxili və xarici bazarlarda milli aqrar əmtəə istehsalçılarının iqtisadi maraqlarının müdafiə edilməsi, bundan əlavə istehsalçılardan kənd təsərrüfatı məhsullarının tədarük edilməsinin bilavasitə həyata keçirən yerli tədarük agentlikləri, kənd təsərrüfatı və emal, yeyinti məhsullarının saxlanılmasını, daşınmasını həyata keçirən yarmarkalar, auksionlar, birjalar, ərzaq mağazası şəbəkələrinin qurulması məqsədə uyğundur.

Kənd təsərrüfatının əsasını torpaq, su ehtiyatları, onun maddi, texniki bazası və bütün başqa istehsal vasitələri təşkil edir. Aqrar sənaye kompleksi kənd təsərrüfatı ilə onun sənaye sahələrinin sintezi və məhsuldar qüvvələrin bilavasitə iştirakının əsasında qurulur.

Aqrar sənaye kompleksin götürsək görərik ki, regionların inkişaf etməsində əhəmiyyətli rola malikdir. Aqrar sənaye kompleksi müxtəlif istiqamətlərdə fəaliyyət göstərən, lakin dialektik vəhdət təşkil edən istehsal təmayüllü xalq təsərrüfatı sahələrinin müəyyən qismi kompleks əmələ gətirən sahələr kimi iki bölməyə - fəaliyət sahəsinə ayrılır. Birinci fəaliyyət sahəsinə kənd təsərrüfatı bütövlükdə və aqrar sənaye kompleksinin digər sahələrini istehsal vasitələri ilə təmin edən maşınqayırma sənayesi, mineral kübrələr və kimyəvi vasitələr istehsalı üzrə sənaye sahələri və s. sahələr daxildir. İkinci fəaliyyət sahəsinə kənd təsərrüfatının bitkiçilik, heyvandarlıq və meşə təsərrüfatı sahələri daxildir.

Aqrar-sənaye inteqrasiyasının obyektiv əsasını təşkil edən məhsuldar qüvvələrin yüksək səviyyəsi, əməyin stimullaşdırılmasının bərabər bölünməsi,

kənd təsərrüfatı iqtisadiyyatının başqa sahələri ilə genişlənən əlaqələrin qurulmasından ibarətdir. Təmərküzləşmə, ixtisaslaşma, fermer(kəndli) təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası qarşılıqlı əlaqədə olan proseslərdir. Təsərrüfatlararası kooperasiya müəyyən texniki, iqtisadi və sosial səviyyəyə çatdıqdan sonra daha da inkişaf edərək yeni sahələrarası birliklərin formalaşmasına səbəb olur. Bu bir tərəfdən ictimai və səxsi istehsalda ixtisaslaşmanın nəticəsi kimi sahələrin ayrılaraq müstəqil fəaliyyət göstərməsini əks etdirirsə də, digər tərəfdən həmin sahələrin qarşılıqlı əlaqəsinin zəruriliyini səciyyələndirir.

Regionlarda kənd təsərrüfatı ilə məşğul olanlar qonşu ölkələrdən daxil olan məhsulların rəqabətindən əziyyət çəkirlər. Bu da kənd əhalisinin istehsal etdikləri məhsullarını reallaşdırılmasını çətinləşdirir və nəticədə onların həyat səviyyəsinin pisləşməsinə səbəb olur.

Kənd təsərrüfatı mülkiyyət formalarından asılı olmayaraq təminat sisteminin funksiyası zəifdir və fermer təsərrüfatlarının müdafiəsi üçün təsisatlar yoxdur, kənd təsərrüfatı çatışmır. Yerlərdə aqrotexniki tədbirlərin həyata keçirilməsinin zəif olması məhsuldar torpaqların keyfiyyətinin azalmasına səbəb olmuşdur. Heyvandarlığın inkişaf etdirilməsində ən vacib məsələlərdən biri hesab edilən baytarlıq xidmətlərinin inkişaf etdirilməsi, bu sahədə daha ciddi nailiyyətlərin əldə edilməsinə gətirib çıxarır.

Regionların hərtərəfli inkişaf etdirilməsi üçün kəndli-fermer təsərrüfatlarının, kiçik və orta sahibkarlığın inkişafı vacib məsələlərdən biridir. Azərbaycan regionlarında aqrar sektorun inkişafı vacib məsələlərdən biridir. Aqrar sector təbii iqtisadi resurslar üzərində təşkil olunur, istehsalın texnoloji əsaslarla idarə edilməsinə əsaslanır. Ölkə daxili aqrar iqtisadiyyatın tarazlaşması bazar sisteminin mexanizminin fəaliyyəti ilə formalaşır.

Regionların sosial-iqtisadi inkişafını təmin edəcək digər bir sahə kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emal edilməsi sektoru xüsusilə qeyd olunur. Bu sektorlarun inkişaf etdirilməsi respublikada rəqabətədavamlı kənd təsərrüfatı məhsulları istehsalı və emalı, dünya bazarına çıxarmaq və müvafiq bazar mövqeyi

tutmağa imkan verəcəkdir.

Keçid dövründə mövcud təsərrüfatlar, kolxoz və sovxozlar ləğv edilmiş, torpaq sahələri əkilməmiş, çay, pampıq, tütün plantasiyaları suvarma və irriqasiya sistemlərinin işləməməsindən, eroziyaya uğrayaraq yararsız hala düşmüşdür. Bütün bunlar kənd təsərrüfatı sahəsində məhsuldarlığın xeyli azalmasına, məhsul istehsalı həcmlərinin aşağı düşməsinə, possovet məkanında satış bazarlarının itirilməsinə səbəb olmuşdur. Lakin, son illər respublikada hökümətin qeyri-neft sektorunun inkişafına ayırdığı diqqət ilk növbədə kənd təsərrüfatı sektorunda canlanmaya səbəb olmuşdur.

Respublikamızda neft-qaz sənayesi kimi yeyinti sənayesi də milli iqtisadiyyatın aparıcı və maddi nemətlər istehsalının çox mühüm bir sahəsidir. Yeyinti sənayesi əhali üçün ərzaq məhsulu, sənayenin bir çox sahəsi üçün xammal meydana gətirir. Bu mənada yeyinti sənayesi ölkə iqtisadiyyatının bir çox sahələrinin inkişafında, bazar münasibətlərinin formalaşmasında, habelə regionlararası iqtisadi əlaqələrin genişləndirilməsində əhəmiyyətli rol oynayır. Yeyinti sənayesində qurulan müəssisələrə daim tələbat vardır. Buna görə də bu tip müəssisələr daha dinamikdir, başqa müəssisələrə nisbətən böhranın təsirinə az məruz qalır.

Azərbaycan respublikasın regionlarında yeyinti sənayesinin inkişafı üçün, hər bir regionun özünəməxsus spesifik xüsusiyyəti, təbii resursları vardır. Regionlarda yeyinti sənayesinin inkişafı respublikaya gətirilən yeyinti məhsullarının idxalını minimuma endirər, regionlarda yeni iş yerlərinin açılmasına, məşğulluq səviyyəsinin artmasına, elmi-texniki tərəqqinin yüksəlməsinə, kiçik şəhərlərin, rayonların, hətta kənd əhalisinin sosial-iqtisadi inkişafının sürətlənməsinə gətirib çıxarar. Yeyinti sənayesinin əsas mənbəyi isə kənd təsərrüfatı, həmçinin balıq və dəniz məhsullarının hasilatı olmuş və olaraq qalır. Hazırki şəraitdə kənd təsərrüfatı məhsullarının çox hissəsi sənayenin yeyinti sahələrində yenidən emal olunur və kənd təsərrüfatı xammalından kompleks istifadə etməyə imkan verən texnologiya və texnika inkişaf etdikcə məhsulların faydalılığı artır və çeşidi genişlənir.

Azərbaycan Respublikasının yeyinti sənayesi sahələrinin intensiv inkişaf

təcrübəsindən istifadə etməklə ölkənin iqtisadi qüdrətini yüksəltmək olar. Başqa sahələrdən fərqli olaraq yeyinti sənayesi bir başa xalqın maddi və mədəni həyat səviyyəsi ilə bağlı olmaqla əhalinin sosial-iqtisadi güzəranının yüksəltməsində əsas rol oynayır.

Respublikanın iqtisadi rayonları üzrə yeyinti sənayesinin yerləşdirilməsi ilk növbədə həmin rayonun iqlim torpaq şəraitindən asılı olaraq kənd təsərrüfatının hansı sahəsinin o rayonda inkişafı, işçi qüvvəsi, enerji mənbələri nəzərə alınaraq, maşın və avadanlıqlar əldə edib quraşdırmaqla emal sahələri yaradılmışdır. Məsələn, Quba-Xaçmaz iqtisadi rayonunda meyvə-tərəvəzçiliyin inkişafı nəzərə alınaraq konserv zavodları tikintisi inkişaf etdirilirdisə, Lənkəran iqtisadi rayonunda çay fabriki, Dağlıq Şirvan iqtisadi rayonunda taxılçılığın inkişafı üçün əlverişli şərait vardır.

Respublikanın iqtisadi rayonlar üzrə yuxarıda deyildiyi kimi yeyinti sahələrinin inkişafı yerli xammal istehsalı, istehlak tələbatı və s.-dən asılıdır. Məsələn Bakı şəhər və Abşeron iqtisadi rayonunda əsasən istehlak tələbatı nəzərə alınaraq yeyinti sahələri yerləşdirilmişdir. Bu regionda un-yarma, makaron, çörək-bulka, xəmirli qənnadı məmulatları, kolbasa, ət, süd konservləri, ət yarımfabrikatları, ət məhsulları, bitki yağları istehsalı, zeytun yağı və konservləri, balıq məhsulları və s. istehsalat müəssisələri fəaliyyət göstərir. Bunlarla yanaşı Bakı və Sumqayıt şəhərində konfet, qənnadı, tütün məmulatları, şərab, spirtsiz içkilər istehsalı sənayesi vardır.  Abşeron iqtisadi rayonunda subtropik bitki məhsulları yetişdirilməsi ilə əlaqədar burada qiymətli zəfəran, badam, əncir qurutma və konservləşmə sənayesi fəaliyyət göstərir.Gəncə-Qazax iqtisadi rayonunda əsasən Gəncə ət, süd, yağ-piy kombinatları, şərab-konyak zavodları, çörək-bulka kombinatı, pivə istehsalı zavodu, və s. fəaliyyət göstərir.Quba-Xaçmaz iqtisadi rayonunda meyvə-tərəvəz konserv zavodları, Xudat, Qızılburun balıq kombinatları, Dəvəçi-Xudat şərab zavodları, taxıl kombinatı və s. müəssisələri vardır. Bu müəssisələrin bir hissəsi özəlləşdirilib fəaliyyətə başlamışlar.Lənkəran iqtisadi rayonunda çay zavodları, konserv zavodları, balıq kombinatı, Masallı-Cəlilabad şərab zavodları, kişmiş sexi, yağ zavodu, ət kombinatı və yeyinti

müəssisələri vardır.

Sosial-iqtisadi inkişaf səviyyəsi, öz növbəsində adambaşına düşən ümumi daxili məhsulun və ümumi milli gəlirin həcmi ilə, ümumi daxili məhsulun strukturu, həyat səviyyəsi və keyfiyyət göstəriciləri ilə müəyyən edilir. Beynəlxalq təcrübədə sosial iqtisadi inkişaf səviyyəsinə görə dünya ölkələrini üç qrupa bölürlər. Beynəlxalq valyuta fondu inkişaf etmiş ölkələr qrupuna sənaye cəhətdən o ölkələri daxil edir ki, alıcılıq qabiliyyətinə əsasən hesablanmış adam başına ümumi daxili məhsul 12000 dollardan az olmasın. Qərbi Avropanın bütün ölkələri, ABŞ, Kanada, Yaponiya, Avstraliya, Yeni Zellandiya, Cənubi Koreya, Sinqapur, Honk-Kong, Tayvan, İsrail, CAR və s. ölkələr bu qrupa aid edilmişdir. İkinci qrupa inkişaf etməkdə olan ölkələr daxildi. Üçüncü qrupa isə geri qalmış ölkələr aid edilir.

Ölkəmizin sosial-iqtisadi inkişafın təmin olunmasında Çin Xalq Respublikasının təcrübəsindən yararlanmaq olar. Belə ki, Çin Xalq Respublikası xarici investorların diqqətini cəlb etmək üçün ilk növbədə şəhərlərdə gəlir vergisini 33%-dən 15%-ə endirdi. Bundan başqa, xarici investorlardan gömrük rüsumu, habelə hazır məhsulun ixracına gömrük güzəştləri tətbiq edilməsi təmin olundu. Bu tədbirlər nəticəsində az vaxt arzında sosial-iqtisadi inkişafa nail olmağı belə bir fakt sübut edir ki, vaxtilə tanınmayan Şençjen qəsəbəsi hər il öz ümumi daxili məhsulunun həcmini ölkənin orta illik sürətinə nisbətən 3 dəfədən çox artırdı.

Çin mütəxəssislərinin fikrincə ölkədə islahatların uğurlu həyata keçirilməsi məqsədi ilə xüsusi zonalar qurulmalıdı. Ölkəmizdə bu zonaların qurulması üçün Sumqayıtda, Naxçıvanda, Qubada, Lənkəranda, Xaçmazda, Zaqatalada böyük imkan var.

Kiçik ərazilər daxilində əhalinin həddən artıq cəmləşməsi onun müxtəlif kənd təsərrüfatı məhsulları ilə fasiləsiz və tam təminatını çətinləşdirir, şəhərdaxili nəqliyyatın istifadəsində ciddi problemlər meydana gəlir, yaşayış bahalaşır, sakinlərin mənzil və su təchizatını ildən-ilə ağırlaşır. İstehsalın müntəzəm olaraq genişlənməsi, həm də əhalinin belə ərazilər daxilində sıxlığının artımı ətraf mühitin intensiv çirklənməsi prosesini də gücləndirir. Bakı şəhəri və Abşeron iqtisadi

rayonunda havanın həddən artıq çirklənməsinin başlıca səbəbi istehsalın bu ərazidə təmərküzləşməsi və əhalinin sıx yerləşməsidir. Bu ərazilərdə sənayenin yüksək inkişafı ilk növbədə neft və qaz çıxarılması, emalı və ətraf mühiti korlayan digər sahələrin inkişafı ilə əlaqədar olmuşdur. Lakin müəssisələrin belə səmərəsiz yerləşdirilməsi nəticəsində onların çoxu yerli xammal mənbəyindən və əsas istehlak mərkəzlərindən ayrı düşmüşdür. Nəticədə səmərəsiz nəqliyyat xərclərinə, xammal və məhsul itkisinə yol verilir, ən başlıcası isə əmək ehtiyatları sürətlə artan rayonlarda onların istehsala cəlb olunması imkanları xeyli azalır.

Hazırda dövlət siyasətinin əsas istiqamətlərindən biri, ölkə əhalisinin məşğulluğunun sosial səmərəliliyinin təmin edilməsinə yönəldilən dövlət məşğulluq siyasətinin formalaşması və əmək ehtiyatlarından səmərəli istifadə edilməsidir.

Professor Ş.M.Muradov yazmışdır: "Demoqrafik proseslər sosial-iqtisadi proseslərlə əlaqədardır və buna görə dövlətin yeritdiyi sosial-iqtisadi siyasət bu və ya digər dərəcədə bu proseslərə təsir edir."(Muradov Ş. 2004: s. 62)

Azərbaycan iqtisadiyyatında neft və qaz sektoru əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Lakin neft və qaz sektorunun inkişafı dövlət gəlirlərinin artırılması baxımından həlledici rol oynasa da, məşğulluq üçün məhdud imkanlara malikdir.

Məşğulluq səviyyəsinin yaxşılaşdırılması üçün ilk öncə qeyri-neft sektorunda regionlar üzrə tarazlı məşğulluğun həvəsləndirilməsi vasitəsilə işçi qüvvəsinə olan tələbin stimullaşdırılması lazımdır. Bunun üçün regionlarda sahibkarlığa kömək mərkəzlərinin açılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən əhalinin müxtəlif sosial qrupları üçün mikrokreditin verilməsi və regional inkişaf proqramları hazırlanmalıdır.

Bundan əlavə regionlarda ixtisaslı kadrların hazırlanması təkmilləşdirilməli, büdcədən maliyyələşən sahələrdə çalışan işçilərin əmək haqqı səviyyəsi artırılmalı, Dövlət Məşğulluq Xidmətindən idarəetmə təkmilləşdirilməli, işsizlər üçün məsləhət xidmətləri və əmək birjaları təşkil edilməli, işçilər ilə işəgötürənlər və həmkarlar təşkilatları arasında qarşılıqlı əlaqələr genişləndirilməli və miqrasiya proseslərinin səmərəli tənzimlənməsi təşkil edilməli, regionlarda informasiya

mərkəzləri açılmalıdır.

Azərbaycanda sosial-iqtisadi inkişafın təmin olunması və yoxsulluğun azaldılması üçün yoxsulluğu törədən səbəblər ortaya çıxarılmalı və təhlil olunmalı, yoxsulluqla üzləşmiş əhalinin ehtiyaclar, yoxsulluqdan xilas olmaq üçün çıxış yollarının müəyyən olunması, sosial və iqtisadi inkişaf siyasətinin hazırlanmasında yoxsulluğun azaldılması üçün tədbirlərin əhatə dairəsi, metodlar və təsiri barədə daha geniş məlumatın əldə edilməsi lazımdır.

Respublikamızda yoxsulluğun davam etməsinə təsir edən əsas səbəb ölkənin müharibə şəraitində olması, bir milyona yaxın əhalinin qaçqın və məcburi köçkün vəziyyətdə olması, bazar iqtisadiyyatına keçərkən bir çox regionlarda sənaye sahələrinin, təsərrüfatçılığın dağılması nəticəsində əhalinin işsiz qalması, regionlarda infrastrukturun pis vəziyyətdə olması, regionlararası əlaqənin pozulması və s. olmuşdur.

Ümumiyyətlə, yoxsulluq ayrı-ayrı fərdlərin və ailələrin yaşayış səviyyəsinin və rifah halının müxtəlif amillərin mənfi təsirinə məruz qalmasıdır. Yoxsulluq həddinin qiymətləndirilməsinin ən geniş yayılmış üsulu onun adambaşına düşən istehlak və ya gəlirin səviyyəsinə görə müəyyənləşdirilməsidir.

Azərbaycanda yoxsulluğun səviyyəsi kənd yerlərinə nisbətən şəhər yerlərində daha yüksəkdir. Yoxsulluğun həddinin şəhərlərdə daha yüksək olması qeyri-aqrar sektorda məşğulluğun aşağı düşməsi, eyni zamanda, kənd yerlərində yaşayan əhalinin torpaqdan gəlir əldə etmək imkanlarının və onları yoxsulluqdan qoruyan fərdi təsərrüfatlarının olması ilə bağlıdır.Lakin kənd yerlərində infrastrukturun səviyyəsinin aşağı olması kənd əhalisini çətinliklərlə üzləşdirir.

İqtisadi regionlarda kiçik və orta sahibkarlığın inkişafı, həmin regionun təbii resursları, iş qüvvəsi və ərazidə olan maliyyə vəsaitinin istehsala cəlb edilməsi imkanlarını artırır. Respublikada tikinti resursları, təbii mineral sular və kənd təsərrüfatı potensialının əlverişli şəraitdə istifadəsi üçün imkanlarının olması, həmin resursların kompleks istifadə və email, həmçinin ixracatı üçün şərait yaradır. Yerli resursların əhali tələbatına uyğun emal olunmalı, hər bir regionda əhalinin ən vacib ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatını ödəmək üçün istifadə

olunmalıdır.

Sahibkarlığın regional xüsusiyyətləri sahə, resurs və tənzimləmə funksiyasını tələb edir. Bu tənzimləmə dövlət mexanizmləri vasitəsilə həyata keçirilir. Kredit resurslarının regionlara yönəldilməsi, regionlarda funksional fəaliyyət növünə görə güzəştlərin, yaxud dotasiya, subsidiya və sosial müdafiə tədbirləri həmin regionun sosial-iqtisadi inkişafını daha da stimullaşdırır. Sahibkarlığın regionlarda inkişafı həmin regionun resurslarından istifadə üçün, yeni təsərrüfat formalarına və investisiya şəraiti üçün əlavə öhdəliklərin və stimullaşdırma mexanizmlərinin tətbiqi nəzərdə tutulur. Dağlıq regionlarda əhalinin məskunlaşması və kəndin sosial inkişafı üçün ayrı-ayrı proqramların tərtibi, onların maliyyə və maddi əsaslarının proqnozu kompleks inkişaf üçün əhəmiyyət kəsb edir. Regionlar üçün ümumi yanaşma konsepsiyası və həmçinin hər bir region üçün konkret tədbirlər tətbiq etmək nəzərdə tutulmalıdır. Sahibkarlığın inkişaf proqramı regional inkişafın sürətləndirilməsi tədbirləri ilə vəhdətdə həll olunur. Regionun sosial-iqtisadi inkişafı sahibkarlığın ərazi və sahə quruluşunun təkmilləşdirilməsi ilə vəhdət təşkil edir. Regionlarda emal sənayesinin inkişafı, sosial infrastrukturun daha geniş prioritet istiqamət alması və hər bir regionda daxili resursların və xarici investorların cəlb edilməsinə şərait yaradılmalıdır.

## 3.2. 2019-2023-cü illəri əhatə edən regional inkişaf proqramı çərçivəsində görüləcək işlər və problemlərin həlli

Azərbaycan Respublikası bölgələrinin hərtərəfli və dinamik inkişaf etdirilməsi, onların sosial-iqtisadi inkişaf səviyyəsi arasındakı fərqlərin tədricən aradan götürülməsi baxımından büdcənin rolu böyükdür. Belə ki, hər il dövlət büdcəsi layihəsi formalaşdırılan zaman respublika regionlarının sosial və iqtisadi inkişafı üçün müəyyən məbləğlərdə vəsait ayrılır və həmin vəsait ilbəil artırılır. Dövlət büdcəsinin tərkibində regionların sosial və bir sıra iqtisadi problemlərinin həlli üçün yerli xərclər nəzərdə tutulur. Bundan əlavə dövlət büdcəsindən dövlət investisiya xərclərinin vəsaiti hesabına regionların sosial-iqtisadi inkişafına hər il

müəyyən məbləğdə vəsait ayrılır. Bu vəsaitlər regionlarda sosial-mədəni, istehsal təyinatlı infrastruktur obyektlərin tikintisinə sərf olunur.

Sosial-iqtisadi inkişafın sürətləməsi müasir Azərbaycan iqtisadiyyatının əsas meyar və prinsiplər sistemi olamaqla, onun bütün sahə, ərazi, texnoloji və resurs problemlərinin həlli üçün aparıcı prioritet vəzifədir. Sosial-iqtisadi inkişaf konsepsiyasının reallaşması mövcud imkanların artırılması mühitində baş verdiyi və onun əsas nəticəsi olmaqla yanaşı iqtisadi potensialın daha da artırılması və rifah problemlərinin həlli mexanizmidir. Ona görə də məhz sosial-iqtisadi inkişafın resurs potensialının möhkəmləndirilməsi, onun mexanizmlərinin təkmilləşməsi və həmçinin aparıcı sahələrin və sosial-iqtisadi amillərin qiymətləndirilməsi tədqiqat obyekti kimi çoxsahəli, aktual və praktiki cəhətdən əhəmiyyətli sahədir.

Regionlar arası iqtisadi əlaqələrin səmərəli qurulması, hər bir ərazi daxilində istehsalın elə məqsədə uyğun inkişafını nəzərdə tutur ki, bu şəraitdə istehsal edilən məhsulların istehlak rayonlarına daşınması üçün ən az maddi, əmək və maliyyə vəsaiti sərf edilsin. Buna görə də, regionlar arası iqtisadi əlaqələrin yaxşılaşdırılması vəzifələri yerli ehtiyat mənbələrindən daha səmərəli istifadə edilməsini tələb edir.

Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi təkcə regionlar arasında deyil, həmçinin də region daxilində istehsalın sahələr arasında optimal nisbətinin qurulmasına şərait yaradır. Ölkədə məhsuldar qüvvələrin sürətli artımı cəmiyyətin ahəngdar inkişafı, iri regionlarla yanaşı, regionlar daxilində də istehsalın daima artımı üçün ümumi əlverişli ictimai-iqtisadi şərait yaradır və son nəticədə onların hər birində təsərrüfatın inkişafına səbəb olur.

Regionlarda istehsalın təmərküzləşmə səviyyəsi nə qədər yüksək olarsa, istehsalın sahə strukturu bir o qədər geniş olar. Sənayenin ayrı-ayrı sahələri, istərsə də sənaye ilə kənd təsərrüfatı sahələri arasındakı əlaqə, iqtisadi cəhətdən məqsədə uyğun çərçivə dairəsində həyata keçirilir.

İqtisadiyyatın inkişafına siyasi, hüquqi, iqtisadi və təşkilati amillər təsir göstərir. Bu amillər bir-biri ilə vəhdət halındadır. Sadaladığımız bu amillər nəzərə alınmadıqda xarici və daxili investorların ölkə iqtisadiyyatına sərmaye qoymasına

stimul olmur və iqtisadi inkişaf ləngiyir.

Hüquqi amil, iqtisadi hüquqi bazanın olması, bazar iqtisadiyyatına uyğun iqtisadi qanunların qəbul edilməsini nəzərdə tutur. 1993-cü ildən bu istiqamətdə uğurlu addımlar atılmışdır. Sahibkarlığın inkişafı, özəlləşdirmə, vergi, gömrük, investisiya fəaliyyəti, büdcə, torpaq və s. haqqında bir çox qanunlar qəbul olunmuş, fərmanlar imzalanmışdır.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin təşkili dövlətin təşkilati tədbirlərinin formalaşmasından, fəaliyyətin düzgün səmtə yönəldilməsindən asılıdır.

**Şəkil 14: Regionların sosial-iqtisadi inkişafının əsas məqsədi**




**Mənbə:** Abutalıbov R. 2010: s. 38

Ölkənin regionlara, ərazi istehsal sistemlərinə bölgüsü iqtisadi cəhətdən əsaslandırılmalı, yəni iqtisadi prinsiplərə uyğun olmalıdır. Rayonlaşma əməyin bölgüsü və əməyin koorperasiyalaşmasının iqtisadi səmərəliliyinin yüksəldilməsinə kömək etməli, təbii, əmək resurslarından səmərəli istifadəni, rayonun coğrafi şəraitindən faydalanmağı, məhsul istehsalı və satışı ilə bağlı xərclərin minumuma endirilməsini, son nəticədə əmək məhsuldarlığını artırmağı təmin etməlidi.

Bir regionun digərindən fərqli sosial-iqtisadi tərəfləri onun ixtisaslaşması, təsərrüfat kompleksliyi, yəni regionun ölkə təsərrüfatında yeri və onun daxili iqtisadi əlaqələridir.

Hazırda sənaye istehsal heyətinin miqdarına görə Bakı şəhəri və Abşeron iqtisadi rayonunda olan müəssisələrin sayı başqa regionlardakı müəssisələrin sayından bir neçə dəfə çoxdur. Elə bunun nəticəsidir ki, müəssisələri az olan rayonlarda əmək resurslarından səmərəli istifadə olunmur və adamların bu ərazilərdən miqrasiyası güclənir.

Əhalinin bir regiondan digər regiona miqrasiya etməsinə təsir edən əsas amillərdən biri insanların məşğulluq səviyyəsinin aşağı olmasıdır. Azərbaycan Respublikası regionlarının demoqrafik potensialının inkişafında əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsi (artırılması) əsas vəzifələrdən biridir. Əmək qabiliyyətli əhalinin məşğulluğa cəlb olunma səviyyəsi yüksəldikcə məhsullara olan maddi və mənəvi tələbatının ödənilmə dərəcəsi də yüksəlir.

Azərbaycanda iri müəssisələrin qurulması, həmin regionun həm sosial, həm də iqtisadi yöndən inkişafına gətirib çıxarır. İri müəssisənin üstünlükləri aşağıdakılardan ibarətdir:

- ✓ İri müəssisələrdə daha güclü və məhsuldarlığı yüksək olan avadanlıqlar tətbiq etmək mümkündür;
- ✓ İri istehsallarda istehsalın və əməyin mütərəqqi təşkili formalarına keçmək daha asan olur;
- ✓ Təmərküzləşmə səviyyəsi yüksək olan istehsallarda xammal və materiallardan, yanacaqdan qənaətlə istifadə üçün yeni, daha mükəmməl texnika, mütərəqqi texnoloji istehsal üsulunun tətbiqi mümkünlüyü, əlverişli şərait meydana gəlir;
- ✓ Regionlarda iri istehsal müəssisələrinin qurulması, bu sahə ilə yanaşı, bank sektorunun, səhiyyənin, xidmət sahələrinin və digər sahələrin inkişaf etməsinə gətirib çıxarır.

Azərbaycanda hər bir iqtisadi regionun özünə məxsus təbii ehtiyatları, onların yerləşmə xüsusiyyətləri, təsərrüfat strukturu, iqtisadi inkişaf səviyyəsi,

ixtisaslaşması vardır. Hər bir region ölkənin təsərrüfat kompleksində özünə məxsus yer tutur. Ona görə də hər bir bölgənin sosial və iqtisadi inkişafını sürətləndirmək üçün, bölgələrin sosial-iqtisadi inkişafını və onları şərtləndirən amilləri dərindən təhlil etmək və onlara məxsus regional xüsusiyyətləri aşkarlamaq lazımdır.

2019-cu il 29 yanvar tarixində Azərbaycanda regionların sosial-iqtisadı inkişafı üçün həyata keçirilmiş 3 böyük dövlət proqramından sonra məqsədyönlü siyasətin tərkib hissəsi olaraq 4-cü sayılan 2019-2023-cü illər Dövlət Proqramı da cənab İlham Əliyev tərəfindən təsdiq edildi.

2019-2023-cü illər Dövlət Proqramının Tədbirlər Planında 947 tədbir nəzərdə tutulmuşdur. Bunun 96-sı ölkə əhəmiyyətli, 851-i isə iqtisadi rayonlar üzrə tədbirdir. İqtisadi rayonlar üzrə baxıldıqda isə Dağlıq Şirvanda 68 tədbir, Lənkəranda 104 tədbir, Quba-Xaçmazda 83 tədbir, Naxçıvanda 18 tədbir,Gəncə-Qazaxda 180 tədbir, Şəki-Zaqatalada 103 tədbir, Yuxarı Qarabağda 46 tədbir, Abşeronda 63 tədbir, Aranda isə 282 tədbir həyata keçirilməsi nəzərdə tutulur. (2019-2023-cü illər Dövlət proqramı)

**Şəkil 15: 2019-2023-cü illər Dövlət Proqramında həyata keçiriləcək tədbirlərin sayı**




**Mənbə:** https://economy.gov.az//uploads/fm/files/DP/Regionların%20iqtisadi%20inkişafı.pdf

2019-2023-cü illər müddətində reallaşdırılacaq dövlət proqramı ərzində də vətəndaşlara xidmət sektorundakı işlər davam etdiriləcəkdir. Belə ki, hal-hazırda

sayı 15 olan ASAN Xidmət mərkəzlərinin sayı 20-dən çox olacaq. Dövlət Proqramında Balakən, Cəlilabad, Tovuz, Şamaxı, Kürdəmir və Ağcabədi rayonlarında da ASAN Xidmət mərkəzlərinin tikilməsi nəzərdə tutulub.

**Qrafik 14: ASAN Xidmət mərkəzlərinin sayı**




**Mənbə:** https://www.asan.gov.az/az/service-centers/asan-xidmetler

**Şəkil 16: ASAN Xidmət mərkəzlərinin yerləşdiyi regionlar**




**Mənbə:** https://www.asan.gov.az/az/service-centers/asan-xidmetler

Azərbaycan Respublikasında turizm üçün əlverişli şəraitin olması, dövlətin bu sahəyə nəzarətini vacib edir. Bu həm turizm biznesinin inkişafı, həm də əhalinin, xaricdən gələn qonaqların dincəlməsi, sağlamlıq ocaqlarından istifadə etməsi nöqteyi-nəzərindən labüddür. İlk öncə turizm sahibkarlığının inkişafı üçün əlverişli investisiya mühit yaradılmalıdır. Bunun üçün turizm sahəsində lisenziyalaşdırma sadələşdirilməlidir və dövlət tərəfindən fauna, flora və digər təsirlər nəzərə alınmaqla, regionda turizmin inkişafı dövlət tərəfindən tənzimlənməlidir.

2019-2023-cü illər Dövlət Proqramına da turizm sahəsində işlərin görülməsi daxil edilmişdir. Bunlardan biri də Naxçıvanda "Darıdağ" Termal Hotelinin qurulmasıdır.

Hal-hazırda respublikamızda da turizm biznesi özünün inkişaf mərhələsinə davam edir. Turizm sahəsinin daha çox inkişaf etməsi üçün əlverişli investisiya mühiti yaradılmalıdır. Bunun üçün turizm sahəsində lisenziyalaşdırma sadələşdirilməlidir və fauna, flora və digər təsirlər nəzərə alınmaqla, regionlarda turizmin inkişafı dövlət tərəfindən tənzimlənməlidir.

Turizmin inkişaf etdirilməsi üçün informasiya, təbliğat və reklam işinin yaxşılaşdırılması həyata keçirilməlidir. Turizm mərkəzləri olan regionlarda yol, rabitə və elektrik enerjisi təchizatı dövlət tərəfindən yaxşılaşdırılmalıdır. Turizm mərkəzləri qurularkən mədəniyyət ocaqlarının, qiymətli ağacların, meşələrin qorunması dövlət orqanları (Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi) tərəfindən tənzimlənməlidir.

Azərbaycanda turizm rayonlaşdırmasına fərqli yanaşmalar mövcuddur. Bir qrup alimin əsərlərində Azərbaycan ərazisi subregionlara və mikrorayonlara bölünür (Ахмедов А., Гаджиев Э., Заманов З. 2000: s. 48)

Digər müəlliflərin əsərində turizm rayonları respublikanın mövcud iqtisadi-coğrafi rayonlarının sərhədlərinə uyğunlaşdırılır. (Əfəndiyev V. 2010: s. 28)

Əksər ölkələrdə istirahət və turizm əsas yer tutur, ancaq təbii vəsaitlərlə müalicə imkanları onların çoxunda xeyli məhduddur. İkincisi, ilk növbədə bu zənginliyin başlıca ünsürünü təşkil edən təbii şərait və imkanlar tükənmir, etibarlı amil kimi əhəmiyyətliliyinib həmişə saxlayır. Belə sərvət imkanlarına malik olan

ölkələrdə onlardan tam istifadə etmək zəminində yaranan istehsal kompleksi bütün hallarda həmin dövlətlərin iqtisadiyyatının əvəzedilməz, aparıcı istiqamətlərini təşkil edir. Turizm sənayesinin inkişaf etdirilməsi üçün ölkəmiz zəngin təbii və əlverişli coğrafi şəraitə malikdir. Turizm sosial və iqtisadi nöqteyi nəzərdən regionlara güclü təsir göstərir. Turizmin inkişafı sayəsində minlərlə iş yeri açılır, kommunikasıya sistemləri inkişaf edir, yerli əhalinin maddi rifah halı artır.

Turizm sosial-iqtisadi nöqteyi-nəzərdən regionlara güclü təsir göstərir. Belə ki, turizmin inkişafı sayəsində minlərlə iş yeri açılır, kommunikasiya sistemləri inkişaf edir, yerli əhalinin mədəni, maddi-rifah səviyyəsi artır. İqtisadi əhəmiyyətlə yanaşı beynəlxalq turizm müxtəlif din və mədəniyyətlərə aid olan insanlar arasında qarşılıqlı anlaşmaya və inamın artmasına səbəb olur.

Respublikamızda turizmin inkişaf etməsində əlverişli iqlim və təbii şərait, mineral sular, landşaft ekzotikliyi, tarixi-mədəni abidələr böyük rola malikdir. Bir çox regionların mineral və termal sularla zəngin olması həmin ərazilərdə kurort-sanatoriya komplekslərinin yaradılmasında vacib amillərdən biridir.

Ölkəmizdə turizmin inkişafı iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusi ilə də nəqliyyatın, rabitənin və ticarətin inkişafına stimullaşdırıcı təsir göstərir. Respublikada turizm potensialının yüksəldilməsi üçün mühüm amillərdən biri də ərazinin tranzit potensialının artırılması ilə bağlı nəqliyyat xidmətləri bazarında ayrı-ayrı nəqliyyat növlərinin inkişaf perspektivləridir.

Turizmin gələcək inkişafı, əsasən mövcud mədəniyyət mərkəzlərinin bərpası və bununla da regionlara mədəni marağın artırılması vasitəsilə mümkün olacaqdır.

Mədəni fəaliyyətin inkişaf etdirilməsi və bu sahədə bərabər imkanların daha da yaxşılaşdırılması ölkədə mövcud mədəni potensialın gücləndirilməsinə birbaşa təsir edəcəkdir.

Azərbaycan regionlarının hər birinin özünəməxsus potensialı vardır və bu potensialdan səmərəli istifadə olunarsa regionlar arasındakı fərqlər aradan qalxar, regiondaxili və regionlararası əlaqələrin genişləndirilməsinə gətirib çıxarar. Sənaye sahələrinin səmərəli yerləşdirilməsində ən mütərəqqi forma hesab edilən ərazi-istehsal kompleksləri müxtəlif sənaye sahələri müəssisələrinin müəyyən ərazi

daxilində bir-biri ilə istehsal-texnoloji və iqtisadi cəhətdən qarşılıqlı əlaqəsi əsasında meydana gəlir. Sənaye sahələrinin inkişaf səviyyəsini təhlil edərkən ilk növbədə hər bir konkret rayon üzrə müasir dövrdə məhz hansı istehsal növünün qurulması zəruriliyi müəyyən olunmalı və bunun əsasında onların inkişaf dərəcəsi qiymətləndirilməlidir. Yeyinti və yüngül sənaye obyektlərindən olan müəssisələri Bakı şəhərindən kənarda tikmək daha məqsədə uyğundur. Regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafında həlledici rol oynayır. Bundan başqa regionlardakı qeyri-aqrar sektorda məşğulluğun stimullaşdırılmasına şərait yaradılmalıdır və kənd yerlərində fermerlər ittifaqı yaradılmalıdır.

İstehsalın Bakı şəhəri və onun ətrafında cəmlənməsinin qarşısını almaq üçün regionlarda xammalın ilkin emalı olunması ilə kifayətlənməməli, xammal istehsalı hazır məhsula çatdırılmalıdır. Bundan başqa daha çox ehtiyac olan bir çox məhsulların istehsalının konkret hansı ərazidə səmərəli yerləşdirilməsi aşkarlanmalı və bu istiqamətdə mühüm işlər həyata keçirilməlidir.

Azərbaycan Respublikası regionlarının hərtərəfli inkişaf etdirilməsində insan amilin rolu çox böyükdür. Belə ki, dünya iqtisadiyyatının inkişaf səviyyəsi göstərir ki, makro və mikro səviyyədə iqtisadiyyatın inkişafında insan amilinin rolu daha böyükdür. Məsələn, Amerika Birləşmiş Ştatları, Yaponiya, İraq və Afrika ölkələrinə nəzər saldıqda görərik ki, İraq və Afrika ölkələri təbii sərvətlərlə zəngin olmasına baxmayaraq, Yaponiyanın, Amerika Birləşmiş Ştatların dünya iqtisadiyyatında rolu daha böyükdür. Buna səbəb iqtisadiyyatın hərəkətverici qüvvəsi olan, bütün resurslardan səmərəli istifadə etməyi bacaran insanların olmasıdır. Bazar iqtisadiyyatı şəraitində təbii və maliyyə resursları ilə yanaşı insan resursları çox vacibdir. Müasir dövrdə yüksək ixtisaslı kadrlara olan tələbat xeyli artmışdır. Çünki müasir əmək alətlərindən yalnız yüksək ixtisaslı və xüsusi texniki hazırlığa malik olan kadrlar səmərəli istifadə edə bilərlər. Bundan başqa, istehsalın kompleks mexanikiləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldildiyi bir şəraitdə işçilərin mədəni-texniki və peşə-ixtisas səviyyəsinə tələb də kəskin sürətdə artmışdır.

Azərbaycanda kiçik və orta sahibkarlığa texniki kömək və insan amilinin inkişafı üçün aşağıdakı tədbirləri həyata keçirmək lazımdır:

- ✓ əhalinin sahibkarlıq fəaliyyəti üçün lazımı biliklərin əldə edilməsinə kömək göstərilməsi;
- ✓ kiçik və orta biznes üçün əsas peşələr üzrə kadr hazırlığının yaxşılaşdırılması;
- ✓ gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasına kömək göstərilməsi.

Azərbaycanda regionların hər tərəfli inkişafına daxili faktorlarla yanaşı xarici faktorlarda öz təsirini göstərir. Bu əsasən dünya iqtisadiyyatında baş verən böhranlar, iqtisadi inkişaf, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıqdır.

Regionların sosial-iqtisadi inkişafına təsir edən amillərdən biri də ərazinin nəqliyyatla təminatıdır. Şərqlə Qərbin qovşağında yerləşən, unikal coğrafi, geosiyasi şəraitə malik olan Azərbaycan, dünya iqtisadiyyatının nəqliyyat sektorunda baş verən proseslərdən kənarda qalmamışdır. Nəqliyyatın inkişafı cəmiyyətin inkişafı ilə əlaqəli olmuş, istehsal sahələrinin inkişafında məhsuldar qüvvələrin formalaşmasında təsir edici amillərdən biri olmuşdur. Dünya miqyasında istehsal olunmuş məhsulların daşınmasında dəniz, avtomobil, hava, dəmir yol və boru kəmər nəqliyyatı sahələrindən geniş istifadə olunur.

Nəqliyyatın inkişaf etdirilməsi müasir şəratidə dünya ölkələri qarşısında duran vacib məsələlərdən biridir. Əlverişli nəqliyyat sahələrinin inkişafı ölkələrin iqtisadiyyatına müsbət təsir etməklə yanaşı, yealtı və yerüstü sərvətlərin istehsal dövriyyəsinə cəlb olunmasına geniş imkanlar açır. İstər dünya, istər ölkə və istərsədə ayrı-ayrı regionlarda şəhərlərin, qəsəbələrin inkişafında nəqliyyat mühüm faktordur. Nəqliyyat şəhər və qəsəbələr, rayonlar arasında əlaqələndirici rola malikdir.

Nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi üçün 2019-2023-cü illər Dövlət Proqramına tədbirlər daxil edilmişdir. Demək olar ki, bütün regionların nəqliyyat infrastrukturunda bərpa və yenidənqurma işləri aparılacaqdır.

Müasir dövrdə hər bir ölkənin iqtisadi tərəqqisinin əsasını təkcə təbii və

maddi resurslar, imkanlar yox, həm də başqa ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq təşkil edir. İndi hətta ayrı-ayrı dövlətlər bu obyektiv zəruriəti nəzərə alaraq ölkənin zəngin təbii sərvətlərindən səmərəli istifadə etmək üçün daha çox başqa ölkələrlə iqtisadi əməkdaşlığa can atırlar.

Azərbaycan Respublikasının regional iqtisadi birləşmələrini nəzərdən keçirdikdə məlum olur ki, coğrafi mövqe mühüm əhəmiyyət kəsb edir. İqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən biri də ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə bağlıdır. Yaxın iqtisadi əməkdaşlıq daha çox eyni iqtisadi inkişaf səviyyəsində olan ölkələr arasında özünü göstərir. İdeoloji, tarixi, mədəni yaxınlıq da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın iqtisadi, siyasi, mədəni, coğrafi, iqlim şəraiti, yeraltı və yerüstü sərvətləri qloballaşma prosesində iştirak etməsinə əlverişli şərait vardır. Qloballaşmanın müsbət cəhətlərindən biri də dünyada olan qlobal iqtisadi, mədəni, siyasi, sosyal və ekoloji problemlərin birgə həllidir. Belə ki, bir çox problemlər vardır ki, bu problemin həlli bir dövlət üçün deyil, bəşəriyyət üçün zəruridir. Bu problemlərin vaxtında aşkarlanması və aradan qaldırılması, bütün dünya ölkələrinin iştirakını tələb edir. Bu problemlərin həlli dünya ölkələrinin və beynəlxalq təşkilatların birgə səyi nəticəsində baş verə bilər. Bu problemlərə yoxsulluğun azaldılması, işğalçılığın terorizmin qarşısının alınması, demoqrafik problemlərin həlli, atmosferin çirklənməsinin qarşısının alınması və s. daxildir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat işinin nəticəsi olaraq Azərbaycan Respublikasında regionların mövcud və gələcək inkişafı üçün dövlətin həyata keçirdiyi tədbirləri qənaətbəxş hesab etmək olar. Ölkə başçısı İlham Əliyevin regionlara səfəri və bölgələrdə mövcud problemlərə diqqətin artırılması nəticəsində regionlarda yeni istehsal sahələrinin, sosial və iqtisadi infrastrukturların inşası sürətlənmiş, qanunvericilik bazası gücləndirilmiş, regionların sosial-iqtisadi inkişafına yönəldilmiş layihələrin maddi təminatı artırılmış, tarif-qiymət siyasəti təkmilləşdirilmiş, Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti artırılmış, bankların regional filial şəbəkələri genişləndirilmiş, ölkə iqtisadiyyatında yüksək artım əldə olunmuşdur.

Hal-hazırda Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üçün görülmüş işlər öz müsbət nəticələrinin göstərsə də, hələ də istifadə olunmamış ehtiyatlar, həllini gözləyən problemlər çoxdur.

Azərbaycan Respublikasında regionlar üzrə sənaye müəssisələrinin yerləşdirilməsində ciddi uyğunsuzluqlar var. Bu müəssisələrin səmərəsiz yerləşdirilməsi əmək və maliyyə vəsaitlərinin israfına, səmərəsiz yük daşımasına səbəb olur. Sənaye müəssisələrinin səmərəli yerləşdirilməsi regionların kompleks inkişafına, əhalinin şəhərlərə axınının qarşısını almağa, şəhərlərlə kəndlər arasında fərqlərin aradan qaldırılmasına, iqtisadiyyatın tarazlı inkişafına gətirib çıxarar.

Regionların sosial-iqtisadi inkişafını təmin edəcək digər bir sahə kənd təsərrüfatı məhsullarının istehsalı və emal edilməsidir. Bu sektorun inkişaf etdirilməsi respublikada rəqabətə davamlı kənd təsərrüfatı məhsullarını emal edərək, dünya bazarına çıxarmağa imkan verəcəkdir. Bundan başqa aqrar bölmənin müasir texnika ilə təchizatı məsələlərinin çevik şəkildə tənzimləməsini təmin etmək məqsədilə lizinq müqaviləsinin obyekti olan əsas vəsaitə aid daşınar əşyaların idxal gömrük rüsumundan və əlavə dəyər vergisindən azad olunması üçün müvafiq tədbirlər görülür.

Kənd təsərrüfatında mülkiyyət formalarından asılı olmayaraq təminat sistemi zəifdir və fermer təsərrüfatlarının müdafiəsi üçün təssisatlar, kənd təsərrüfatı texnikası çatışmır. Yerlərdə aqrotexniki tədbirlərin həyata keçirilməsinin zəif

olması məhsuldar torpaqların keyfiyyətinin azalmasına səbəb olmuşdur.

İqtisadi regionlarda kiçik və orta sahibkarlığın inkişafı, təbii resursların, iş qüvvəsi və maliyyə vəsaitinin regionlarda istehsala cəlb edilməsi imkanlarını artırır. Respublikada tikinti resursları, təbii mineral sular və kənd təsərrüfatı potensialının əlverişli şəraitdə istifadəsi üçün imkanlarının olması, həmin resursların kompleks istifadəsi və emalı, həmçinin ixracı üçün şərait yaradır. Hər bir regionda yerli resurslardan əhalinin ən vacib ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatını ödəmək üçün istifadə olunmalıdır.

Respublikanın iqtisadi regionların iqtisadi inkişaf səviyyəsi arasında kəskin fərqlərin olması və əhalinin məşğulluğunun aşağı olması, həmin regionlarda yoxsulluğun artmasına səbəb olmuşdur. Yoxsulluğun artmasına təsir edən əsas səbəb ölkənin müharibə şəraitində olması, bir milyona yaxın əhalinin qaçqın və məcburi köçkün vəziyyətində olması, bir çox regionlarda sənaye sahələrinin, təsərrüfatçılığın dağılması nəticəsində əhalinin işsiz qalması, regionlarda infrastrukturun inkişafının tələbatı ödəməməsi regionlararası əlaqələrin pozulması və s. olmuşdur. Bu problemlərin aradan qaldırılması üçün regionların potensialını aşkarlamaq lazımdır. Bakı şəhəri, Abşeron iqtisadi rayonu, Aran və Gəncə-Qazax iqtisadi rayonlarını sürətlə inkişaf edən rayonlar qrupuna aid etmək olar. Depressiv iqtisadi rayonlar, buna həmçinin problemli ərazilər də demək olar ki, respublikamızda bu tip ərazilərə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarını göstərmək olar. İqtisadi inkişaf səviyyəsinə görə aralıq mövqe tutan rayonlara isə Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Dağlıq Şirvan və Naxçıvan iqtisadi rayonlarını aid etmək olar. Bu regionların inkişaf etdirilməsi və fərqlərinin aradan qaldırılması üçün bir çox inzibati, iqtisadi və sosial tədbirlər həyata keçirilməlidir.

Respublikada yoxsulluğun azaldılması üçün sosial müdafiə sistemi təkmilləşdirilməli, müavinət və yardımların əhalinin daha çox ehtiyacı olan təbəqəsinə ünvanlı şəkildə çatdırılmalı, təhsilin və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirləri davam etdirilməlidir.

Regionların inkişafında mühüm məsələlərdən biri kənd təsərrüfatı məhsullarının, ilk növbədə pampığın, üzümün və tütünün ölkədə emal edilib son məhsula çatdırılmasına nail olmaqdan ibarətdir. Əsasən Aran iqtisadi rayonunda yüngül sənaye sahələrinin – pampıq emalının, parça istehsalı, yunun emalı və s. yenidən müasir standartlara uyğun təşkil olunması təmin olunmalı, Dağlıq Şirvan iqtisadi rayonunda dağılmış üzüm bağlarının yenidən salınması başa çatdırılmalı, Şəki-Zaqatala iqtisadi rayonunda ipəkçiliyin, tütünün istehsalı dəstəklənməlidir.

Azərbaycanda sosial-iqtisadi inkişafın təmin olunması və yoxsulluğun azaldılması üçün yoxsulluğu törədən səbəblər müəyyən olunmalı və yoxsul əhalinin ehtiyacları, yoxsulluqdan xilas olmaq üçün çıxış yollarının müəyyən olunması, sosial və iqtisadi inkişaf siyasətinin hazırlanmasında yoxsulluğun azaldılması üçün tədbirlərin əhatə dairəsi, metodlar və təsiri barədə daha geniş məlumatın əldə edilməsi lazımdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

### Azərbaycan dilində


1. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər)
2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2009-2013-cü illər)
3. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2014-2018-ci illər)
4. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2019-2023-cü illər)
5. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası
6. Abutalıbov R. (2010), İstehsalın ərazi təmərküzləşməsi və regionların sosial-iqtisadi inkişafı, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Bakı, səh. 181
7. Əfəndiyev V.Ə. (2010) Azərbaycanın iqtisadi və sosial coğrafiyası, dərslik, Bakı, səh.496
8. Həsənov T.G. (2012), İqtisadi-coğrafi rayonlaşdırma, Bakı, "Bakı Universiteti", səh.245
9. İsmayılova Nuray, (2017), Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının artırılmasında beynəlxalq kreditlərdən istifadənin imkanları, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, səh. 100
10. Məmmədova Aygün, (2018), Regionların sosial-iqtisadi inkişaf problemləri, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, səh. 90
11. Muradov Ş.M. (2004) İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər , Bakı, Elm, səh. 660
12. Nuriyev Ə.X. (2004), Regional siyasət və idarəetmə, Bakı, səh.289


### Xarici dildə


1. Арженовский И. (1999)"Региональный рынок: воспроизводственный аспект", Нижний Новгород, с.111

2. Ахмедов А.Н, Гаджиев Э.М, Заманов З.А (2000) Международный туризм, Баку, с. 139
3. Долятовский В. (1994), “Зарубежный опыт комплексного развития регионов”,Региональная, № 3 , Москва , с. 12
4. Калашникова Т. (1999) “ Экономико-географическое районирование”, Москва, МГУ, с. 56

1. Armstrong N., Taylor J. (1993) Regional economics and policy , Harvester Wheatsheaf, p. 397
2. Balchin P., Sykora L. (1999) Regional Policy and Planing in Europe, London, Routledge, p. 273
3. Folmer H. (1986), Regional economic policy , Dordrech, Martinus Nijhoff Publishers, p. 270

1. Kahraman Arslan (2005) , Bölgesel planlama ve bölgesel kalkınma ajansları, İstanbul Ticaret Universitesi Sosyal Bilimler dergisi, № 7, İstanbul, s. 275-294
2. Nihal Kargı (2009) , Bölgesel kalkınma yaklaşımlarındakı gelişmeler, Uluslararası iktisadi ve idari incelemeler dergisi, № 3 , s. 19-40

**İnternet resursları**

1. www.anfes.gov.az – Sahibkarlığın İnkişaf Fondu
2. www.anl.az – Milli kitabxana
3. www.asan.gov.az – ASAN Xidmət
4. www.azstat.org – Azərbaycanın Statistik İnformasiya Xidməti
5. www.economy.gov.az – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
6. www.e-qanun.az – Normativ hüquqi aktların vahid internet elektron bazası

7. www.president.az – Azərbaycan Respublikası Prezidentinin rəsmi internət səhifəsi
8. www.preslib.az – Prezident kitabxanası
9. www.senaye.gov.az – Azərbaycanın Sənaye Portalı
10. www.stat.gov.az – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

**Şəkillərin siyahısı**

Şəkil 1. Regionun əsas özəllikləri............................................................... **10**

Şəkil 2. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq respublikamızda regional iqtisadiyyatda yaranan problemlər................................................. **12**

Şəkil 3. Regionların təsnifləşdirilməsi........................................................ **14**

Şəkil 4. Regionların bölündüyü qruplar...................................................... **15**

Şəkil 5. 2014-2018-ci illər Dövlət Proqramı ərzində keçirilən tədbirlərin sayı.................................................................................................... **26**

Şəkil 6. 2014-2018-ci illər ərzində verilmiş güzəştli kreditlərin respublika iqtisadi rayonlar üzrə bölgüsü (faizlə)......................................................... **31**

Şəkil 7. 2014-2018-ci illər ərzində dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş investisiya layihələrinin iqtisadiyyatın sahələr üzrə bölgüsü.............................................................................................. **33**

Şəkil 8. 2014-2018-ci illər ərzində dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş investisiya layihələrinin iqtisadiyyatın sahələr üzrə bölgüsü (faizlə ifadəsi).......................................................................... **33**

Şəkil 9. Ölkəmizin iqtisadi strukturu............................................................ **37**

Şəkil 10. Qeyri-neft sənayesinin ümumi buraxılışının strukturu. (2018-ci ildə).................................................................................................... **38**

Şəkil 11. Əsas kapitala yönəldilmiş investisiyaların strukturu (2018-ci ildə)................................................................................................... **39**

Şəkil 12. Sənaye məhəllələri........................................................................ **40**

Şəkil 13. Sənaye parkları............................................................................. **40**

Şəkil 14. Regionların sosial-iqtisadi inkişafının əsas məqsədi..................... **53**

Şəkil 15. 2019-2023-cü illər Dövlət Proqramında həyata keçiriləcək tədbirlərin sayı.................................................................................... **55**

Şəkil 16. ASAN Xidmət mərkəzlərinin yerləşdiyi regionlar........................ **56**

**Qrafiklərin siyahısı**

Qrafik 1. Cənab prezidentin regionlarda açılışınd və ya təməl qoyma mərasimində iştirak etdiyi obyektlərin sayı................................................ **27**
Qrafik 2. Orta aylıq əmək haqqı................................................................. **28**
Qrafik 3. Yoxsulluq faizi........................................................................... **28**
Qrafik 4. Dövlər Proqramlarının reallaşması nəticəsində açılmış müəssisələr........................................................................................... **29**
Qrafik 5. Dövlət Proqramlarının reallaşması nəticəsində açılmış iş yerləri.. **29**
Qrafik 6. İqtisadiyyata qoyulmuş investisiyalar.......................................... **30**
Qrafik 7. Verilmiş güzəştli kreditlərin həcmi.............................................. **30**
Qrafik 8. Güzəştli kreditlər verilmiş sahibkarların sayı................................ **31**
Qrafik 9. 2014-2018-ci illər ərzində verilmiş güzəştli kreditlərin respublikanın iqtisadi rayonlar üzrə bölgüsü (min manatla)........................ **32**
Qrafik 10. Güzəştli kreditlər hesabına maliyyələşdirilən investisiya layihələrinin reallaşdırılması nəticəsində yaradılan iş yerləri...................... **32**
Qrafik 11. 2014-2018-ci illər ərzində verilmiş güzəştli kreditlərin sahələr üzrə bölgüsü (məbləğ üzrə, milyon manatla)............................................... **34**
Qrafik 12. Ümumi Daxili Məhsulda qeyri-neft sektorunun artım dinamikası (milyon manatla)........................................................................................ **38**
Qrafik 13. Kənd təsərrüfatında əkin sahələri (min hektarla)....................... **41**
Qrafik 13. ASAN Xidmət mərkəzlərinin sayı............................................. **56**